Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

24
İYUN
2020-ci il
№ 100 (4231)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# AZƏRBAYCAN ORDUSUNUN DAĞLIQ ƏRAZİLƏRDƏ TƏLİMLƏRİNİN STRATEJİ ƏHƏMİYYƏTİ...

■ səh. 3 ■

Azərbaycan düşmən üzərində aviasiya gücünü artırır... Rusiyanın Su-35 və MiQ-35 çoxfunksiyalı qırıcıları...

■ səh. 9 ■

Erməni deputat ölkəsinin "artıq it yerinə də qoyulmadığını" dedi... "Əliyevlə, Nazarbayevlə telefon danışığı oldu, Paşinyanı buna da layiq görmədilər"...

■ səh. 8 ■

Paşinyanı öz ölkəsində sabitliyin gələcəyi barədə açıq bədgüman edən səbəblər...

■ səh. 11 ■

ABŞ-da keçmiş prezidentlərə hücumlar - heykəlləri uçururlar, Tramp Obamaya dövlət satqını dedi... Nə baş verir...

■ səh. 11 ■

Naxçıvanın qaz təminatında İrandan asılılıq tam aradan qalxır - Azərbaycan yenə bir addım öndə...

■ səh. 12 ■

Koronavirusa yoluxanların ağciyərlərində "buzlu şüşə" nədir...

■ səh. 13 ■

Səudiyyənin xaricilər üçün Həcci qapatmasının Azərbaycan üçün də xüsusi faydaları var...

■ səh. 14 ■

Pandemiya dövründə tikintinin vüsəti zəifləyib, tikinti materialları niyə bahalaşıb?

■ səh. 15 ■



■ səh. 5 ■

## Ermənistan parlamenti ilə Konstitusiya məhkəməsinin çəkişməsinə Avropa Şurası da qarışdı, Venesiya Komissiyasının sözünü Paşinyan yenə saymadı...

■ səh. 3 ■

Erməni və rus rejissorun işğal olunmuş Azərbaycan ərazilərində fransız Bibi Naserin baş rol aldığı film çəkilişini necə dayandırmaq olar - "Valter"...



■ səh. 7 ■

Koronavirusa yoluxmuş tanınmış baş redaktor həmkarlarına və bütün Azərbaycan vətəndaşlarına çağırış etdi





Türkiyə əsassız erməni iddiaları ilə mübarizənin strategiyasını hazırlayır - Azərbaycan üçün yeni perspektiv açılır

■ səh. 10 ■

Pandemiya dövründə jurnalistlərin fəaliyyəti rəsmi qaydalarda tam aydın göstərilib - jurnalist adından sui-istifadə edənlərin səsi daha gur gəlir

■ səh. 4 ■



Vanetsyan Ermənistanın bütün siyasi qüvvələrini Paşinyanın üstünə səfərbər etməyə başladı...

■ səh. 6 ■

«Qlobal indeks 100» erməniləri Avropanın «antisemit milləti» saydı...

■ səh. 6 ■

## "Vətən uğrunda oğlumu itirsəm də, yüzlərlə oğul qazanmışam" - Pirallahıdan şəhid anası Əliyeva Xatirə xanım Prezidentə yazdı...

**"Şəhid ailələrinə, Qarabağ qazilərinə, məcburi köçkünlərə göstərdiyiniz diqqət və qayğı bizim həyatımızda misilsiz rol oynayır. Sizin bu qayğıkeş münasibətinizdən digərləri ibrət götürürlər.**

Qarşılaşdığımız çətinliklərin aradan qaldırılması ilə əlaqədar dövlət qurumlarına ünvanladığımız müraciətlərə həssaslıqla yanaşılır, lazımi tədbirlər görülür. Bütün bunlara görə Sizə dərin minnətdarlığımı bildirirəm. MənVətən uğrunda bir oğlul itirsəm də, əvəzində minlərlə oğul qazanmışam və bununla fəxr edirəm. Başda Siz olmaqla, şəhid ruhuna və şəhid anasına böyük hörmət və ehtiram bəsləyən hər kəsə alqış və dua edirəm. Ömrünüz uzun olsun".

Bu fikirlər Bakının Pirallahı rayonundan şəhid anası Əliyeva Xatirə Rəşid qızının Prezident İlham Əliyevə yazdığı məktubda əks olunub.

*Baki-xeber.com*

## "Tibb müəssisələri ilə bağlı gördüyünüz işlər çətin gündə köməyimizə çatdı" - İmişlinin Ağamallılar kəndindən Sadıqova Gülnar xanımın Prezidentə yazdıqlarından...



**İmişli rayonunun Ağamalılar kəndindən Sadıqova Gülnar Famil qızı Prezident İlham Əliyevə müraciət edib.**

"Sizin müdrikliyiniz və gördüyünüz təqdirəlayiq işlər sayəsində ölkəmiz son illər ərzində sürətlə inkişaf edib və daha da gözəlləşib. Üzləşdiyimiz taleyüklü məsələlərdə və keşməkeşli həyat yollarında xalqımız Sizin həlledici addımlarınızla nicat tapıb, min bir çətinliyə sinə gərib. Son vaxtlar dünyaya meydan oxuyan pandemiya dövründə biz bir daha bunun şahidi olduq. Əvvəlki illərdə çoxlu sayda tibb müəssisəsinin tikilməsi və ya təmir olunması, ölkəmizin maddi ehtiyatlarının formalaşdırılması, texniki imkanların genişləndirilməsi bu çətin məqamda köməyimizə çatdı. Bax, budur uzaqgörənlik" - deyə o qeyd edib.

*Baki-xeber.com*

## Azərbaycanda 508 nəfərdə koronavirus aşkarlandı, 335 nəfər sağaldı, 6 nəfər vəfat etdi



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 508 yeni yoluxma faktı qeydə alınıb, 335 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib. İndiyədək ölkədə, ümumilikdə, 13 715 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 7 503 nəfər müalicə olunaraq sağalıb, 167 nəfər vəfat edib, 6 045 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6464, ötən müddət ərzində isə, ümumilikdə, 432 858 test aparılıb.

## Azərbaycanda koronavirusa yoluxanların 52 faizi Bakıda, paytaxtda isə ən çox yoluxma Binəqədidə - 12,3 faiz...

**Azərbaycanda koronavirusa yoluxanların 52 faizi Bakının payına düşür.**

"Trend"in məlumatına görə, Bakı şəhəri üzrə ən çox yoluxma halları paytaxtın Xətai, Yasamal və Binəqədi rayonlarında olub. Xətai 12,2 faiz, Yasamal isə 12,2 faiz təşkil edib. Bakıda ən çox yoluxma isə Binəqədi rayonunda - 12,3 faiz olub.

Müvafiq olaraq yoluxma faizi Sabunçuda 11.7 faiz, Nəsimidə 11.9 faiz, Suraxanıda 9.2 faiz, Nərimanovda 8.8 faiz, Nizamidə 7.9 faiz, Qaradağda 6 faiz, Xəzər rayonunda 4.3 faiz, Səbaildə 4.2 faiz, Pirallahıda 0.3 faiz təşkil edib.

Qeyd edək ki, indiyədək ölkədə, ümumilikdə, 13 207 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 7168 nəfər müalicə olunaraq sağalıb, 161 nəfər vəfat edib, 5878 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

# Dövlət dili normalarının pozulmasına görə KİV və reklam daşıyıcıları cərimələnəcək - Qanun qüvvəyə mindi



**Prezident İlham Əliyev Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununu imzalayıb.**

"Trend"in məlumatına görə, bununla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 116.1-ci maddəsinə 533-1-ci maddə əlavə edilir. Bu maddə kütləvi informasiya vasitələrində (KİV) və reklam daşıyıcılarında dövlət dili normalarının pozulması hallarını nəzərdə tutur.

Belə ki, kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

# Sərt karantin rejimi tətbiq edilən şəhər və rayonların sakinləri yenidən 190 manat birdəfəlik ödəmə alacaq

**Nazirlər Kabineti Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi haqqında qərar verib.**

Baki-xeber.com xəbər verir ki, qərarda deyilir: Nazirlər Kabinetinin 2020-ci il 7 aprel tarixli 127 nömrəli Qərarı ilə təsdiq edilmiş "Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"na əsasən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə müvafiq qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra 190 manat məbləğində ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçirilsin.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov isə bildirib ki, xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlar üzrə 190 manat ödəmə almış şəxslərə eyni məbləğdə birdəfəlik ödəmə veriləcək.

F.Talıbov deyib ki, ödəniş xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlar (Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron, Yevlax, Cəlilabad, Masallı rayonları) üzrə aprel-may aylarında 190 manat ödəniş almış şəxslərə şamil olunacaq.

Onun sözlərinə görə, 190 birdəfəlik ödəmə üçün növbəti dəfə müraciət etməyə ehtiyac yoxdur.

F.Talıbov qeyd edib ki, iyun ayı üzrə 190 manat birdəfəlik ödəmə zamanı faktiki yaşayış yeri nəzərə alınacaq. Bu zaman vətəndaşın aprel-may ayları üzrə birdəfəlik ödəmə almaq üçün onlayn müraciət edərkən qeyd etdiyi ünvan əsas götürüləcək.

O, bildirib ki, həmin yardımla bağlı vətəndaşların təkrar müraciət etməsinə ehtiyac yoxdur: "Sərt karantin rejimi tətbiq edilən şəhər və rayonlarda birdəfəlik ödəniş veriləcək vətəndaşlar aprel və may aylarında həmin müavinəti alıblar. Ona görə də həmin şəxslərin təkrar müraciət etməsinə ehtiyac yoxdur. Ödəniş xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlar üzrə aprel-may aylarında 190 manat ödəniş almış şəxslərə şamil olunacaq".



**Azər Abdulla, Ağa Abdullaoğlu, Zəminə Dünyamalıyeva, Cavid Abbasov, Yasin Rüstəmov, Rəkidə İlham, Xətayə Xasməmmədova, Mahir Əsədov, Telman Orucov, Aydın Şirinov, Şəmsəddin Əliyev, Lətifə Allahverdiyeva, Şamil Qarayev, Rəşad Faziloğlu, Zeynal Həmidov və Elnur Qasımov Telman Quliyevə bacısı Ceyran xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Azər Abdulla, Ağa Abdullaoğlu, Zəminə Dünyamalıyeva, Cavid Abbasov, Yasin Rüstəmov, Rəkidə İlham, Xətayə Xasməmmədova, Mahir Əsədov, Telman Orucov, Aydın Şirinov, Şəmsəddin Əliyev, Lətifə Allahverdiyeva, Şamil Qarayev, Rəşad Faziloğlu, Zeynal Həmidov və Elnur Qasımov Elbrus Quliyevə anası Ceyran xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

**Azər Abdulla, Ağa Abdullaoğlu, Zəminə Dünyamalıyeva, Cavid Abbasov, Yasin Rüstəmov, Rəkidə İlham, Xətayə Xasməmmədova, Mahir Əsədov, Telman Orucov, Aydın Şirinov, Şəmsəddin Əliyev, Lətifə Allahverdiyeva, Şamil Qarayev, Rəşad Faziloğlu, Zeynal Həmidov və Elnur Qasımov Surxay Qocayevə qaynanası, Məhluqə xanıma isə anası Ceyran xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

# Azərbaycan Ordusunun dağlıq ərazilərdə təlimlərinin strateji əhəmiyyəti...

**Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına əsasən dağlıq ərazidə hücumun planlaşdırılması və aparılması tapşırıqlarının icrası üzrə Azərbaycan Ordusu bölmələrinin təlimi keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, təlimə 800 nəfərədək şəxsi heyət, 100-dək zirehli döyüş və avtomobil texnikası, 40-dək müxtəlif çaplı artilleriya qurğusu, altı ədəd döyüş və nəqliyyat helikopteri cəlb olunub. Təlimin məqsədi komandirlərin dağlıq ərazidə döyüş bacarıqlarının təkmilləşdirilməsi, hücum döyüşlərinin aparılması zamanı bölmələrin idarəolunması, şəxsi heyətin fiziki dözümlülüyünün yoxlanması, eləcə də bölmələrin qarşılıqlı fəaliyyətinin təşkili olub. Həyəcan siqnalı ilə qaldırılan bölmələr ehtiyat rayonunun tutulması, dağ aşırımlarının və hakim yüksəkliklərin ələ keçirilməsi, əsas qüvvələrin hücumu üçün əlverişli şəraitin yaradılması tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər. Təlimin yekun mərhələsində döyüş atışları icra olunub.

Azərbaycan ordusunun dağlıq ərazidə hücumun planlaşdırılması və aparılması tapşırıqlarının icrası üzrə təlimlərinin hansı strateji əhəmiyyəti var?

Hərbi ekspert Ramil Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son 6 ildə Azərbaycan Silahlı Qüvvələri hərbi təlimlərin sayını bir neçə dəfə artırıb: "Artıq Azərbaycan ordusu briqada və korpus səviyyəsində deyil, qoşun növləri, Ümumqoşun Ordusu səviyyəsində təlimlər keçirir. İldə 4-5 belə təlimin keçirildiyinin şahidi oluruq. Bu təlimlər fəsillər və relyef üzrə həyata keçirilir. Bunlardan biri də dağlıq ərazilərdə keçirilən təlimlərdir. Bu relyef üzrə keçirilən təlimlər də müxtəlif təyinatlı olur. Məsələn, hücum, əks hücum, müdafiə dərinliklərdə yerləşən düşmən mövqelərinin məhv edilməsi istiqamətində həyata keçirilir. Azərbaycan ordusunun dağlıq ərazidə keçirdiyi hazırkı təlimlər də mövcud situasiya ilə bağlıdır. Bizim ordumuzun qarşısına qoyulan başlıca məqsəd Azərbaycan ərazilərinin işğaldan azad edilməsidir. Bizim işğal altında olan ərazilərimizin çox böyük hissəsi, təxminən 80 faizi dağlıq əraziyə düşür. Bura Dağlıq Qarabağın öz ərazisini, Kəlbəcər, Laçın, Qubadlını, Füzuli rayonunun şimal hissəsini, Cəbrayılı aid edə bilərik. Bunların hər biri dağlıq olmaqla yanaşı, həm də çox sərt keçidləri olan ərazilərdi. Bu səbəbdən

*Ramil Məmmədli: "Məqsəd işğal altında olan ərazilərimizin azad edilməsi istiqamətində effektiv nəticənin əldə edilməsidir"*



də, Azərbaycan ordusunun həmin istiqamətlərdə təlim keçərək döyüş bacarığını, taktiki döyüş vərdişlərini təkmilləşdirməsi çox vacibdir. Bundan başqa, Azərbaycan ordusunun silah, texnika parkına da baxdıqda biz görərik ki, ordunun son illərdə əldə etdiyi silahların böyük əksəriyyəti məhz dağlıq ərazilərdə qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə hesablanıb. Ordunun yeni, müasir bölməsinin də yaradılması məhz bu məqsədə xidmət edir.

Söhbət pilotsuz uçuş aparatlarının ordunun istifadəsində olmasından gedir. Bu da çətin keçidli dağlıq ərazilərdə kəşfiyyat və zərbə tədbirlərinin həyata keçirilməsinə yönəldilib. Bundan başqa, ordumuzun xüsusilə cəbhə xətti boyunca yerləşən bir çox bölmələri məhz dağlıq ərazilərdə xidmət aparır və onlar belə şəraitdə döyüş tapşırıqlarını yerinə yetirmək üzrə ixtisaslaşıblar. Yenə qeyd edirəm, məqsəd işğal altında olan ərazilərimizin azad edilməsi istiqamətində effektiv nəticənin əldə edilməsidir. Bunun üçün şəxsi heyət məlum istiqamətdəki təlimlərə cəlb edilir. Eyni zamanda, aldığımız sualların bu döyüş şəraitində istifadəsi öyrənilir".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni və rus rejissorun işğal olunmuş Azərbaycan ərazilərində fransız Bibi Naserin baş rol aldığı film çəkilişini necə dayandırmaq olar - "Valter"...

**Erməni kinorejissor Robert Def və rusiyalı kinorejissor Rano Kubayeva işğal altındakı Azərbaycan torpaqlarında məşhur Fransa aktyorunun baş rol aldığı "Valter" adlı bədii filmin çəkilişinə başlayıblar. Erməni mediasının yaydığı məlumata görə, iyunun 21-də Xankəndi yaxınlığında filmin çəkilişlərinə start verilib.**



Filmdə məşhur "Taksi" filmindən tanınan fransalı aktyor Sami Naserinin qardaşı Bibi Naseri baş rolda oynayacaq.

Azərbaycan əleyhinə saxta fakt və hadisələrlə müşayiət olunan "Valter" filmindəki hadisələr 20-ci əsrin 90-cı illərində baş verir. Filmdə Valter (Bibi Naseri) adlı erməni Rusiyadan Dağlıq Qarabağa gələrək anasını dəfn etməyə çalışır. Hadisələr Qarabağ müharibəsi fonunda cərəyan edir.

Məlumat üçün qeyd edək ki, ötən ilin avqustunda Azərbaycan Mədəniyyət Nazirliyi erməni və rusiyalı kinorejissorların işğal altındakı Qarabağda film çəkilişlərinə hazırlığı ilə bağlı olaraq Rusiya Mədəniyyət Nazirliyinə

*Məhərrəm Zülfüqarlı: "Beynəlxalq hüquq müstəvisində belə halların qarşısını almaq istiqamətində səyləri artırmaq lazımdır"*

etirazını bildirib. Ancaq görünən odur ki, buna əhəmiyyət verməyiblər. Bütövlükdə, işğal olunmuş Dağlıq Qarabağ ərazisində belə qanunsuz filmlərin çəkilməsinə necə mane olmaq olar və sözügedən məsələ ilə əlaqədar daha nə edilməlidir?

Məsələyə münasibət bildirən tarix üzrə elmlər doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, beynəlxalq hüquq müstəvisində belə halların qarşısını almaq istiqamətində səyləri artırmaq lazımdır: "Rusiya hər zaman Qarabağ məsələsində rəsmiyyətə gələndə riyakarlıq edir. Qarabağdakı separatçı qurumu Rusiya tanımır. Ancaq hamı da bilir ki, Qarabağ münaqişəsinin memarı Rusiyadır. Ermənistanda olan hərbi bazalardan hər zaman separatçıların xeyrinə istifadə edilir. Azərbaycan tərəfi Rusiya ilə münasibətlərdə qonşuluq prinsiplərinə önəm verir. Hətta Azərbaycan tərəfindən Həştərxanda məktəb tikintisi də həyata keçirilir. Bizim Rusiyaya münasibətdə səmimi olmağımıza rəğmən, onlar bizə qarşı səmimi deyil. Ona görə də belə xoşagəlməz hallar baş verir. O baxımdan rusiyalı kinorejissor Rano Kubayevanın işğal altındakı Azərbaycan torpaqlarında film çəkilişlərində iştirak etməsi təəssüf doğurur. Ermənilərin Rusiya telekanallarında, mediasında təsir imkanları genişdir. Hesab edirəm ki, biz bu məsələni belə buraxmamalıyıq. Azərbaycan Xarici İşlər Nazirliyi səviyyəsində beynəlxalq hüquqa uyğun olaraq buna etiraz edilməlidir. Eyni zamanda, həmin filmin çəkilişində iştirak edən şəxslər "qara siyahı"ya salınmalıdır".

*"Xarici İşlər Nazirliyi səviyyəsində buna etiraz edilməlidir"*

**Bütün mümkün vasitələrlə belə halların baş verməsinin qarşısını almaq lazımdır. Əks təqdirdə müxtəlif ölkələrin işğal olunmuş ərazilərdə film çəkilişlərində qanunsuz iştirakı adi hal ala bilər.**

***Vidadi ORDAHALLI***

# Pandemiya dövründə jurnalistlərin fəaliyyəti rəsmi qaydalarda tam aydın göstərilib - jurnalist adından sui-istifadə edənlərin səsi daha gur gəlir

## *Mehman Muradlı: "İllərdir pul qazanıb vergidən yayınan jurnalistlərin əksəriyyəti belə tələbləri yerinə yetirmədiyi üçün çətin vəziyyətlə üzləşib"*

**Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli "Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Qərarının əlavəsində fəaliyyətinə icazə verilmiş sahələrin siyahısında kütləvi informasiya vasitələrinin (KİV) də adı qeyd edilib.**



Operativ Qərargahdan verilən məlumata görə, bu məqam sərtləşdirilmiş xüsusi karantin rejimində KİV-in fəaliyyətinin hüquqi təminatıdır və onu göstərir ki, KİV-in fəaliyyəti ilə bağlı heç bir hüquqi məhdudiyyət yoxdur.

Bildirilib ki, sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə bu hüquqdan istifadənin texniki tərəfi icazə.e-gov-az portalında qeydiyyatdan keçməklə həll olunur.

Azərbaycanda akkreditasiyadan keçmiş xarici KİV-in təmsilçiləri haqda məlumatlar Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən icazə.e-gov-az portalına daxil edilib.

Yerli KİV-in nümayəndələri isə, Qərarda qeyd olunduğu kimi, fəaliyyət göstərdikləri KİV-in rəhbərliyi tərəfindən icazə.e-gov-az portalında qeydiyyatdan keçirilməlidir.

Mülki hüquqi müqavilə əsasında fəaliyyət göstərən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən, hər hansı hüquqi şəxslə müqavilə bağlamadan VÖEN əsasında fərdi fəaliyyət göstərən şəxslər barədə məlumatlar onların özləri tərəfindən gücləndirilmiş elektron imzadan istifadə etməklə icazə.e-gov-az portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Qeydiyyatla əlaqədar yaranan problemlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidməti) 9108 Çağrı Mərkəzinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinə müraciət oluna bilər.

Ancaq maraqlıdır ki, bəzi şəxslər bu sadə proseduru həyata keçirmək əvəzinə, Operativ Qərargahın qəbul etdiyi bu qərarı mediaya təzyiq kimi qiymətləndirir. Operativ Qərargahın bəyanatından da görünür ki, onlar bu ittihamla qəti razılaşmırlar. Bəs müstəqil hüquqşünasların Operativ Qərargahın KİV-lə bağlı verdiyi qərara münasibəti necədir?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Operativ Qərargah, bir çox sahələr kimi, KİV nümayəndələrinin də fəaliyyətinə, sərbəst hərəkətinə icazə verib:"Bəzi KİV əməkdaşları bu icazəni səhv anlayıblar. Təəssüf ki, bu yöndə onları səhv istiqamətə yönəldən ekspertlər də var. Onların verdiyi səhv hüquqi şərhlər həmin jurnalistləri daha da kontekstə uyğun olmayan yazılar yazmağa vadar edir. Hesab edirəm ki, həmin ekspertlərin başlıca məqsədi bulanıq suda balıq tutmaqdan ibarətdir. Bəzi müstəqil jurnalistlər onların fəaliyyətinə bu qərarın mane olduğunu deyir. Bu məsələlər qanunvericiliklə tənzimlənir. KİV haqqında qanunda qəzet və sayt yaratmağın sadə prosedur olduğu göstərilir. Bunun özü göstərir ki, KİV-in fəaliyyəti üçün nə qədər münbit şərait var. Nədənsə, həmin ekspertlər qanunun bu yumşaq tərəfindən heç danışmırlar. KİV həm də bir kommersiya qurumudur. Onun gəliri, çıxarı ilə bağlı məlumatlar verilməlidir. Əgər bu yoxdursa, onda sual oluna bilər: hansı maraqla belə KİV fəaliyyət göstərir? Ya gəliri var, gizlədilir, ya da qanunsuz üsullarla maliyyələşir. Bu elementar qaydalara riayət olunsa, KİV-dən hesabatlar tələb olunacaq. Həmin hesabatlarda KİV-in vergi və sosial ödənişləri barədə məlumatlar veriləcək. Burda nə çətin iş var ki? Hətta adi bir "asan imzanın" olmağı kifayət edir ki, jurnalist özü barədə məlumatı portala daxil etsin. Çoxunda bu da yoxdur. Onda bu fəaliyyətin adını nə qoyaq? Əlinə bir telefon götürüb, çəkib hadisəni ictimailəşdirmək blogerlikdi, onun peşəkar jurnalistika ilə heç bir əlaqəsi yoxdur. Operativ Qərargah bu adamların jurnalist olduğunu necə müəyyən edə bilər? Onda hər əlində telefon olan deyəcək ki, mən jurnalistəm. Baxırsan adamın adına sayt var, amma bu icazəni almaq istəmir, müstəqil jurnalist kimi özünə əlavə imtiyaz istəyir. Saytın fəaliyyəti o deməkdir ki, sən artıq hüquqi şəxsə rəhbərlik edirsən. Bu yolla icazənin alınması daha asandır. Sərbəst jurnalistika ilə məşğul olan şəxs də şəxsi "VOEN" əsasında fəaliyyət göstərməlidir.

Çünki bütün fəaliyyətlərin vergi uçotunda durması mütləqdir. Bu üsulla da icazənin alınması asandır. İllərdir pul qazanıb vergidən yayınan jurnalistlərin əksəriyyəti belə tələbləri yerinə yetirmədiyi üçün çətin vəziyyətlə üzləşib. Əldə yalnız vəsiqənin olması şəxsin jurnalistika ilə məşğul olduğuna dəlalət etmir. Keçən sərt karantin zamanı biz gördük ki, vəsiqələri jurnalistika ilə əlaqəsi olmayan adamlara satıblar, onların arasında hətta məktəb direktoru belə vardı".

***Məhəmmədəli QƏRİBLİ***

# Abşeronda keçirilən əməliyyatın təfərrüatı açıqlandı - İcra Hakimiyyətinin şöbə müdiri həbs edildi

**Azərbaycan Respublikasında həyata keçirilən davamlı iqtisadi inkişaf siyasətinin mühüm şərtlərindən biri kimi şəffaflığın və maliyyə intizamının təmin edilməsi, həyata keçirilən iqtisadi islahatların korrupsiyaya qarşı mübarizə tədbirləri ilə dəstəklənməsi prokurorluq orqanları tərəfindən qanunla ona həvalə edilmiş səlahiyyətləri çərçivəsində daim diqqət mərkəzində saxlanılmaqla aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə korrupsiya hüquqpozmaları törətmiş vəzifəli şəxslərə qarşı mübarizədə ardıcıl tədbirlərin icrası davam etdirilir.**



Baş Prokurorluqdan baki-xeber.com-a bildirilib ki, bu çərçivədə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161-Qaynar xətt" əlaqə mərkəzinə Abşeron Rayon İcra Hakimiyyətinin vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciətlər araşdırılmışdır.

Bununla əlaqədar həyata keçirilən kompleks əməliyyat-istintaq tədbirləri ilə Abşeron Rayon İcra Hakimiyyəti Memarlıq və tikinti şöbəsinin müdiri (baş memar) Akif Əliyevin vətəndaşa tikinti üçün hər hansı layihə hazırlanmadan və rayon İcra hakimiyyətinə tikintiyə icazə üçün rəsmi qaydada müraciət olunmadan, müvafiq zəruri sənədləşmə aparılmadan tikinti aparılması üçün ümumi himayədarlığı həyata keçirəcəyini bildirib, Abşeron Rayon İcra Hakimiyyəti MKTB-nin Xırdalan şəhəri 3 saylı Mənzil Təsərrüfat İstehsalat İstismar təmir sahəsinin rəisi Murad Əhmədovun vasitəsilə 3000 manat məbləğində pul vəsaitini rüşvət qismində istəyib almasına, daha sonra tikinti obyektində aparılan tikinti-quraşdırma işləri zamanı ümumi sahə həcminin artmasını bildirib əlavə olaraq vətəndaşdan 1500 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına, Murad Əhmədovla aralarında bölməklə şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bununla əlaqədar Akif Əliyev 23 iyun 2020-ci il tarixdə Cinayət Məcəlləsinin 311.2-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona həmin maddədə nəzərdə tutulan ittiham elan olunmuş, Binəqədi rayon məhkəməsinin qərarı ilə barəsində 4 ay müddətə həbs qətimkan tədbiri seçilmişdir.

Həmçinin, istintaqla Murad Əhmədovun özünün Akif Əliyevlə yaxın münasibətlərinin olmasını, həmin münasibətindən istifadə edərək vətəndaşın Xırdalan şəhərində yerləşən "AAAF Park" yaşayış kompleksinin nəzdində 96 kv/m qeyri yaşayış sahəsinin texniki şərtlərinə dəyişiklik edilməsi və eskiz layihəsinin hazırlanması imkanına malik olmasını, bunun müqabilində 2500 manat məbləğində pul vəsaitinin rüşvət qismində verilməsinin zəruri olmasını yalandan bildirərək vətəndaşı aldatmasına, qeyd edilən məsələnin müsbət həlli üçün onun 1000 manat məbləğində pul vəsaitini ələ keçirməsinə, o cümlədən vətəndaşın xeyrinə edəcəyi hərəkətə görə sonuncunu 2500 manat məbləğində pul vəsaitini rüşvət qismində verməyə təhrik etməsinə şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Müraciət üzrə Baş İdarənin əməkdaşları tərəfindən keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində M.Əhmədov vətəndaşı aldadaraq 1000 manat məbləğində pulu 20.06.2020-ci il tarixdə ondan alarkən cinayət başında yaxalanmışdır.

Qeyd olunan qanunsuz əməllər məhkəmə qərarı əsasında keçirilmiş əməliyyat-axtarış tədbirlərinə uyğun olaraq audio-video çəkilişlərlə təsdiq olunmuşdur.

Murad Əhmədov Cinayət Məcəlləsinin 32.4, 312.1 (rüşvət verməyə təhrik etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə 3 ay müddətə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə digər təqsirli şəxslərin, eləcə də baş vermiş qanun pozuntularında iştirakı müəyyən edilən rayon icra hakimiyyətinin əməkdaşlarının tam dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşları Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzi və Baş Prokurorluğun 961 nömrəli "Çağrı Mərkəzi"nə məlumat verilməsini tövsiyyə edir.

# Ermənistan parlamenti ilə Konstitusiya məhkəməsinin çəkişməsinə Avropa Şurası da qarışdı, Venesiya Komissiyasının sözünü Paşinyan yenə saymadı...

**Avropa Şurasının baş katibi Mariya Peyçinovuç-Buriç Ermənistandakı vəziyyətlə bağlı bəyanat verib. Bildirilir ki, Venesiya komissiyasının 19 iyunda qəbul edilmiş konsultativ fikri Ermənistanın parlamenti və Konstitusiya məhkəməsi arasında konstitusiya böhranına səbəb olmuş problemi həll etmək imkanı verir.**

## *Rəşad Bayramov: "Bu, sözün əsl mənasında, Ermənistanda dərin hakimiyyət böhranının olmasından xəbər verir"*

Venesiya komissiyasının fikri konstitusiyaya dəyişikliklər məsələsində Konstitusiya məhkəməsinin işinə yenidən baxılması çərçivəsindədir", bildirilən bəyanatda o da qeyd olunur ki, komissiya, eyni zamanda, parlamentin referendum barədə qərarını dəyişməyə çağırır. Bundan əlavə, Venesiya komissiyası Konstitusiyanın 2015-ci ildəki vəziyyətini qəbul və qanuni hesab edir. Avropa Şurasının katibi həmçinin qeyd edib ki, Venesiya komissiyası keçid dövrünü əhatə edən müvafiq qərardan təəssüf hissi keçirir.

"Mən hakimiyyəti konstitusiya böhranını aşmaq üçün Venesiya komissiyasının təklifləri ilə razılaşmağa və Konstitusiyanın Avropa Şurasının standartlarına cavab verən 2015-ci ildəki vəziyyətinə müdaxilə etməməyə çağırıram", deyə bəyanatda bildirilir.

Yaranmış vəziyyətdən hansı nəticəni çıxarmaq olar?

Politoloq Rəşad Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda bu problemin dərin kökü var:"Qısa izahı budur ki, Paşinyan tam avtoritarizmi bərqərar etmək üçün Konstitusiya Məhkəməsini özünə ram etmək istəyir. Artıq parlament bununla bağlı referendum keçirilməsinə razılıq verib. Ümumxalq səsverməsinə çıxarılan məsələ 2015-ci il konstitusiya islahatından əvvəl təyin olunmuş Konstitusiya Məhkəməsinin sədri və bəzi üzvlərinin səlahiyyətlərinin ləğv edilməsidir. "Məxməri inqilab"dan sonra hakimiyyətə gəlmiş Nikol Paşinyan hakimiyyəti məhkəmə sistemində islahatlar məsələsində ciddi problemlərlə üzləşdiyini bildirib. Baş nazir Paşinyan dəfələrlə bildirib ki, hazırkı məhkəmə strukturlarını, xüsusilə ali məhkəmə orqanlarında əksəriyyəti keçmiş rejimlə bağlı kadrlar təşkil edib. Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan isə Serj Sarkisyanın rəhbərlik etdiyi sabiq iqtidar Ermənistan Respublikaçı Partiyasının son yüksək vəzifəli üzvüdür. Hrayr Tovmasyan və Konstitusiya Məhkəməsinin 7 üzvü könüllü istefa verəcəkləri təqdirdə maaşlarını




ömürlük pensiya şəklində almaq təklifindən imtina edərək, istefa verməyəcəklərini bildirib. Ermənistan müxalifəti gözlənilən referendumu konstitusiyaya zidd, qanunsuz və qeyri-demokratik adlandırıb.

Paşinyan hökuməti 2020-ci il 20 yanvara kimi könüllü istefa verən KM üzvlərinə hazırda aldıqları maaş ölçüsündə ömürlük təqaüd təyin etmək qərarını qəbul etdi. Lakin KM sədri və hakimləri buna da razı olmadılar. Hətta Hrayr Tovmasyana qarşı onun daha əvvəl ədliyyə naziri işləyərkən yol verdiyi günahları ilə bağlı cinayət işləri açılmışdı, lakin o, KM sədri vəzifəsini tərk etmək niyyətində olmadığını bəyan edib. Nikol Paşinyan hesab edir ki, ölkənin məhkəmə sistemində yaranmış böhranın səbəbi hakimlərin, o cümlədən KM hakimlərinin əksəriyyətinin keçmiş hakimiyyət dövründə təyin edilməsi ilə bağlıdır. Avropa qurumları və xüsusilə də Venesiya Komissiyası Paşinyanı bu yoldan çəkinməyə çağırsa da, o geri addım atmaq istəmir. Bu, sözün əsl mənasında, Ermənistanda dərin hakimiyyət böhranının olmasından xəbər verir. Paşinyan hakimiyyətə gələndən sonra Venesiya Komissiyasının, demək olar ki, heç bir tövsiyəsini nəzərə almayıb".

***Məhəmmədəli QƏRİBLİ***

# Həmsədrlər ünvanlı reaksiya vermədikcə, Paşinyan yolunu daha çox azır - İki "təhlükəsizlik şurasının" birgə iclası...

**Qarabağ separatçıları rəhbərliyinin də iştirak etdiyi Ermənistan Təhlükəsizlik Şurasının iclasında Paşinyan Azərbaycan rəhbərliyinin ünvanına böhtan xarakterli ittihamlarla çıxış edib.Həyasızcasına iddia edib ki, guya rəs mi Bakı Qarabağ nizamlanmasında kompromislərdən imtina edib:**



## *İbrahim Rüstəmli: "Paşinyan bəzən heç özü də bilmir nə danışır"*

"Danışıqlar prosesində real irəliləyiş gözləməyə dəyməz, xüsusilə də bu, müharibə və ya erməni xalqına qarşı birbaşa və ya dolayısı ilə ərazi və ya tarixi tələblərin irəli sürülməsi ilə müşayiət olunursa. Əminəm ki, Qarabağ münaqişəsini uzunmüddətli, genişmiqyaslı Ermənistan-Azərbaycan düşmənçiliyinə -xalqlarımızın bir-birinin hər şeyini - keçmiş, gələcək və bütün regionu mübahisələndirməsinə - çevirmək cəhdləri nə erməni, nə də Azərbaycan xalqlarının maraqlarına uyğun deyil".

Bu azmış kimi, P aşinyan təhdidlərə keçərək bildirib ki, Ermənistan və Qarabağla hərbi münaqişə Azərbaycana dövlətçiliyin itirilməsi bahasına başa gələ bilər: "Güc tətbiqi nəticəsiz qalmayacaq və ona cavab hər zaman həm hərbi, həm də siyasi baxımdan adekvat olacaq".

Görünən odur ki, ATƏT-in Minsk Qrupu ünvanlı reaksiya vermədikcə, Paşinyan danışıqların pozulmasına yönəlik açıqlamalarını bir az da sərtləşdirir. Eyni zamanda, hədə dili ilə danışır. Bütün bunları ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələni dəyərləndirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmli hesab edir ki, Paşinyanın səsləndirdiyi fikirlərin heç bir əsası yoxdur: "O, bəzən heç özü də bilmir nə danışır.

*"Hərbi əməliyyatlar başlayarsa, o zaman ordumuz bütün işğal altında olan əraziləri azad edəcək"*

Azərbaycan dövləti və dövlətçiliyi kifayət qədər əmin əllərdədir. Dövlətçiliyin itirilməsindən söhbət belə gedə bilməz. Hərbi əməliyyatlar başlayarsa, o zaman Azərbaycan Ordusu bütün işğal altında olan əraziləri azad edəcək. Ordumuzun ötən illər ərzində döyüş qabiliyyəti, müasir silahlarla təchizat səviyyəsi kifayət qədər artıb. Silahlı Qüvvələrimiz ən müasir silahlarla təchiz olunub. Azərbaycan sonsuza qədər işğalla barışmayacaq. Bunu hər kəs, o cümlədən, Ermənistan da bilməlidir. Sadəcə, danışıqlar prosesində bütün imkanlar hələ tükənməyib. O da sirr deyil ki, ATƏT-in Minsk Qrupu işğalçı tərəfə öz yerini göstərmədiyi üçün, Paşinyan hər dəfə bu cür provokativ xarakterli çıxışlar edir. Əgər buna görə Ermənistan rəhbərliyinə güclü təzyiq olarsa, o zaman Paşinyan belə məsuliyyətsiz fikirlər səsləndirməyə cəsarət etməz.

Paşinyan nə qədər belə populist xarakterli fikirlər səsləndirsə də, Ermənistanın üzləşdiyi ağır böhran ortadadır. Ölkə hakimiyyəti koronavirus pandemiyası ilə bacara bilmir. Belə olan halda, Paşinyanın Azərbaycanla hədə dilində danışması tamamilə absurddur".

***Vidadi ORDAHALLI***

# "Qlobal indeks 100" erməniləri Avropanın "antisemit milləti" saydı...

**Nüfuzlu "News Blaze" nəşrində amerikalı jurnalist və publisist Nurit Qringerin "Bu yaxınlarda dərc olunmuş sənəd Amerika ermənilərinin nasizmi və antisemitizmi dəstəkləməsi barədə faktları ifşa etdi" sərlövhəli məqaləsi çıxıb. Məqalədə bir sıra faktlar öz əksini tapıb.**



## *Qasım Hacıyev: "Qərb ölkələrində bununla bağlı tədqiqatların aparılması, müəyyən faktların..."*

Qeyd olunub ki, ABŞ Konqresinin 1945-ci ildə yazılan və bu yaxınlarda açıqlanan hesabatında daşnaklardan - 1890-cı ildə əsası qoyulan və hazırda Ermənistanda, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Qarabağ regionunda, həmçinin, ABŞ-da və erməni diasporunun olduğu digər ölkələrdə fəaliyyət göstərən ifrat millətçi erməni partiyasının davamçılarından bəhs edilir. Miçiqandan olan konqresmen Frenk E.Huk tərəfindən təqdim edilən rəsmi sənəddə "Daşnaksütyun" Erməni İnqilabi Federasiyası "çoxillik faşist-terrorçu fəaliyyəti təcrübəsinə malik dəstə" kimi təsvir edilir. Sənəddə o vaxt irqçilik siyasətinə və daşnakların taktikasına qarşı çıxış edən erməni əsilli amerikalılara qarşı törədilmiş şantaj və qətl halları misal çəkilir. N.Qringer yazır ki, Amerikanın erməni apostol kilsəsinin keşişi, arxiyepiskop Leon Turyan daşnakların ən qatı tənqidçilərindən biri olub. 1933-cü ildə Nyu-Yorkda Milad messası zamanı arxiyepiskop daşnaklar tərəfindən öldürülüb.

O da qeyd olunub ki, ötən müddət ərzində daşnaklar o qədər də dəyişməyiblər. Antisemitizm Ermənistanda, həmçinin, dünya ölkələrində mövcud olan erməni icmalarında geniş yayılan problemdir. Yəhudilərə münasibətdə antisemitizmə və dözülməzliyin digər formalarına qarşı çıxış edən Amerika yəhudi qeyri-hökumət ictimai-siyasi hüquq müdafiə təşkilatının - Antidiffamasiya Liqasının "Qlobal indeks 100" tədqiqatının nəticələrinə dair hesabatda qeyd edilir ki, ermənilərin əksəriyyəti dərin antisemit əhval-ruhiyyədədir ki, bu saya görə də ermənilər Avropada antisemit millət hesab olunurlar. 2018-ci ildə Pyu Tədqiqatlar Mərkəzinin apardığı sorğuların gedişində ermənilərin 32 faizi yəhudiləri Ermənistan vətəndaşı qismində qəbul etmədiklərini bildirib.

*"Bütün bunların sayəsində ermənilərin iç üzü, xisləti dünya ictimaiyyətinə bəlli olur"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə, aparılan tədqiqatlar reallığı əks etdirir: "Çünki antisemitizm ermənilərin qanındadır və onların xisləti tarixən belə olub. Bunu tarixi araşdırmalar da göstərir. Onlar hər hansı bir dövlətin tərkibində, böyük təşkilatların yanında olarkən onlara əvvəl xidmət göstərirlər, sonra öz mənafelərinə uyğun şəkildə həmin təşkilatları yönəldə bilirlər. Bir vaxtlar ermənilər böyük həvəslə faşizmə qulluq edirdilər. Ona görə ki, bu, onların xislətindən doğan bir hissdir. Ermənilərlə yəhudilərin münasibətlərinə dair çoxsaylı yazı var. Tarixən ermənilər yəhudiləri sevməyiblər. Ermənilərin tarixən antisemitizm baxışları onu göstərir ki, özlərindən başqa digər millətləri heç vaxt sevməyiblər. Ermənilərin apardıqları siyasətin içində hər zaman özünü sevmək prinsipləri daha qabarıq şəkildə özünü göstərir. Bu, onların yeritdikləri siyasətdə də mühüm rol oynayır. Qərb ölkələrində bununla bağlı tədqiqatların aparılması, müəyyən faktların ictimailəşdirilməsi müsbət tendensiyadır. Bütün bunların sayəsində ermənilərin iç üzü, xisləti dünya ictimaiyyətinə bəlli olur. Ermənilər üçün müqəddəs heç nə yoxdur. Lap xristianlığın özündə də onlar başqa mövqe tuturlar".

**Belə məlum oldu ki, antisemitizm ermənilərin gen yaddaşına həkk olunub. Harada və necə yaşamalarından asılı olmayaraq, bu düşüncə tərzi onların xislətindədir.**

*Vidadi ORDAHALLI*

# Vanetsyan Ermənistanın bütün siyasi qüvvələrini Paşinyanın üstünə səfərbər etməyə başladı...

**Ermənistanın "Vətən" partiyasının sədri Artur Vanetsyan açıqlama verib. O müraciət edərək bütün siyasi qüvvələri Paşinyana qarşı birləşməyə çağırıb: "Əziz həmvətənlər, Nikol Paşinyan hakimiyyətini qorumaq üçün heç bir şey qarşısında dayanmayacaq.**



## *Ramil Hüseynov: "Görünən odur ki, Ermənistanda Paşinyanın devrilməsi prosesinə start verilib"*

Bu gün Nikol Paşinyan öz "orbitindən çıxıb". İstefaya getdiyim ərəfədə söylədiklərim indi reallığa çevrilir.Nikol Paşinyanın aylardır Konstitusiya Məhkəməsinə və Konstitusiya Məhkəməsi hakimlərinə etdiyi təzyiqlərdən sonra onun göstərişləri ilə konkret bir cinayət tərkibli qanun layihəsi bugünkü parlament iclasının gündəliyinə daxil edildi. O, ən azı 88 deputatın iştirak etdiyi qruplaşma ilə ağır cinayət törədərək hakimiyyəti ələ keçirmək və konstitusiya quruluşunu devirmək istəyir.

Hörmətli deputatlar!

Fikirləşməyin ki, səsverməklə törədilmiş ağır cinayətin nəticələrindən özünüzü qoruya biləcəksiniz. Buna görə də sizi Ermənistanın Baş naziri vəzifəsini tutan və özünü idarə edə bilməyən bir şəxsin qanunsuz təlimatlarına əməl etməkdən çəkinməyə çağırıram. Nikol Paşinyan sizi cinayət törətməyə vadar edir, nəticəsi çox ciddi olacaq - ilk növbədə dövlətimiz, sonra da hər birimiz üçün. Bugünkü səsvermə ilə siz Nikol Paşinyanın hərəkətlərindən cinayət və siyasi məsuliyyəti ayıracaqsınız.

Əziz həmkarlar!

Yaranan vəziyyətə görə "Vətən" partiyası "Konstitusiya quruluşunun bərpası Komitəsi" yaratmaq təşəbbüsü ilə çıxış edir və dövlətin taleyi ilə maraqlanan bütün ictimai-siyasi qüvvələrə təcili məsləhətləşmələrə başlayır".

Görünən odur ki, Ermənistandakı bütün müxalif siyasi qüvvələr Paşinyanın üstünə yeriməyə hazırlaşır. Maraqlıdır, sözügedən proseslər nəticəsində nə baş verəcək?

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, Ermənistanda daxili gərginlik artıqca son vaxtlar siyasi müxalifətin təmərküzləşməsi meyilləri artır: " Paşinyana qarşı daxili təzyiqlərin artması müşahidə edilir. Məsələ ondadır ki, Paşinyanın əvvəlcə Konstitusiya Məhkəməsinin sədri Tovmasyana etdiyi hücumlar hakimlərin və məhkəmə sisteminin siyasi iqtidarla münasibətini korladı. Bununla yanaşı, "Qarabağ klanı" Paşinyana qarşı fəallığını artırıb. Sözügedən klan bir neçə istiqamətdən Paşinyana qarşı hücuma keçib. Əsasən Paşinyana yönəlik informasiya müharibəsi gücləníb. Ermənistan MTX-nın keçmiş sədri, "Vətən" partiyasının sədri Artur Vanetsyan, ölkənin Vatikandakı keçmiş səfiri Mikael Minasyan Paşinyan və onun ətrafını korrupsiyada, dövlət büdcəsini talamaqda ittiham etdi. Bununla bağlı ortaya çıxan faktlar Ermənistanı çalxaladı. Qagik Çarukyanın rəhbərlik etdiyi "Çiçəklənən Ermənistan" partiyasının sıxışdırılması siyasi gərginliyi bia az da artırdı. Görünən odur ki, Ermənistanda Paşinyanın devrilməsi prosesinə start verilib. Xüsusən də son proseslərin arxasında Rusiyanın dayandığı güman edilir. Bu arada sabiq prezident Robert Köçəryanın həbsdən çıxması siyasi müxalifəti bir az da ruhlandırıb. Nəzərə alsaq ki, Paşinyana qarşı Rusiyaya bu və ya digər dərəcədə yaxın olan siyailər xüsusi fəallıq göstərir, o zaman onun üçün çətin olacaq. Digər tərəfdən, Paşinyanın koronavirus pandemiyası dövründə vətəndaşların sosial-iqtisadi problemlərini həll etməməsi və ölkədə xəstəliyin qarşısını ala bilməməsi onun hakimiyyətinə qarşı cəmiyyətin etimadını tükəndirib".

*"Nəzərə alsaq ki, Rusiyaya bu və ya digər dərəcədə yaxın olan siyasilər xüsusi fəallıq göstərir, o zaman onun üçün çətin olacaq"*

Belə görünür ki, qarşıda Paşinyanı çox çətin günlər gözləyir. Siyasi müxalifətin birləşməsi və xarici faktorlar ölkədə hakimiyyət dəyişikliyini tezləşdirə bilər.

*Vidadi ORDAHALLI*

# Koronavirusa yoluxmuş tanınmış baş redaktor həmkarlarına və bütün Azərbaycan vətəndaşlarına çağırış etdi

***İlham Quliyev:** "Biz eyni vaxtda virusa yoluxsaq da, artıq ailə üzvlərimi evə buraxıblar"*

**Koronavirusa yoluxanlar arasında tanıdığın insanların, həmkarlarının, qələm adamlarının da olduğunu eşidəndə çox təəssüflənirsən, ürəyindən dərin bir sızıltı keçir. Əlbəttə, gözəgörünməz düşmən olan koronavirus hər birimizi yaxalaya, bizdən öc ala bilər. Yəni heç kim bu düşmənlə üzləşməkdən sığortalanmayıb. Bununla belə, virusa yoluxan hər bir Azərbaycan vətəndaşının bu virusa qalib gələcəyinə inanırıq.**

Bu günlərdə "Kaspi" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İlham Quliyevin və ailə üzvlərinin COVID-19-a yoluxması ilə bağlı xəbər yayılıb. Olduqca təəssüf və ağrı hissilə qarşıladıq bu xəbəri. Hazırda "Neftçilər" xəstəxanasında koronavirusdan müalicə alan İlham Quliyevlə əlaqə saxladıq və onun vəziyyətilə tanış olduq.

**- İlham müəllim, bu xəbəri böyük təəssüf hissilə qarşıladıq. Keçmiş olsun. İndi özünüzün və ailə üzvlərinizin vəziyyəti necədir?**

- İndi şükür Allaha, yaxşıyam, artıq təhlükə sovuşub. İndi məndə narahatlıq, təhlükə doğuran simptomlar yoxdur. Biz iyunun əvvəlindən virusa yoluxmuşduq. Özümüzdə narahatlıq hiss edən kimi xəstəxanaya müraciət etdik və iyunun 10-da bizim test nəticələrimiz çıxdı. Amma məndə nəticə neqtiv idi. Ailə üzvlərimi, övladlarımı və həyat yoldaşımı xəstəxanaya yerləşdirdik. Amma mənim test nəticəm neqativ olduğu üçün məni xəstəxanaya götürmədilər, evdə qaldım. Mən evdə qaldığım müddətdə özümdə bütün əlamətləri müşahidə edirdim. Hiss edirdim ki, məndə bu xəstəliyin bütün əlamətləri - baş və əzələ ağrıları, halsızlıq, temperatur, boğaz ağrısı vardı. Sonra mən ağciyərlərimi kompyuter tomoqrafiyasına saldım. Kompyuter tomoqrafiyası ilə aparılan müayinələr ağciyərlərimin hər iki payında "buzlu şüşə" aşkarladı və həkimlər bunu COVID-19-un nəticəsi olaraq qəbul etdilər. Sonra məsləhət oldu ki, məni xəstəxanaya yerləşdirsinlər, həkim nəzarətində olum. Xəstəxanada çox intensiv müalicə prosesi gedir, sistemlər köçürülür, virus əleyhinə dərmanlar verilir, antibiotiklər qəbul edirəm. Həkim nəzarətindəyəm, şükür Allaha, özümü yaxşı hiss edirəm. Yəqin ki, bir müddət müalicəm davam edər və məndən növbəti testin nəticəsi neqativ çıxarsa, evə buraxarlar. Amma yəqin ki, bir müddət xəstəxanada olacağam.

**- Ailə üzvlərinizin virusa yoluxduğunu biləndə hansı hisslər keçirdiniz?**

- Birinci, testin nəticələri ailə üzvlərimdə pozitiv çıxdı və bundan çox narahat oldum. Uşaqlarımın yaşı azdır, onların və həyat yoldaşımın vəziyyətinə görə çox ciddi narahatlıq keçirdim. Amma virus məsələsi meydana çıxandan mən onunla bağlı çox məlumatlıyam. Yəni, ilkin olaraq, bildim ki, ailə üzvlərimin vəziyyətində elə də həyati təhlükə yoxdur. Lakin, istər-istəməz, narahatlıq yaşadım. Ailə üzvlərimi xəstəxanaya yerləşdirdikdən, həkim nəzarətinə verdikdən sonra isə xeyli toxdadım. O vaxt fikirləşirdim ki, özüm müalicəmi ev şəraitində davam etdirərəm, bu halla özüm mübarizə apara bilərəm. Amma sonrakı şərait göstərdi ki, həkim nəzarətində olmağa böyük ehtiyac var və mübarizənin həkim nəzarəti altında aparılması önəmlidir. Bu, müalicə prosesinin müddətini də xeyli azaldır. Yəni biz eyni vaxtda virusa yoluxsaq da, artıq ailə üzvlərimi evə buraxıblar və onlar evdədirlər. Amma mən onlardan sonra xəstəxanaya getdiyim üçün hələ mənim müalicəm davam edir. Yəni bu əyani bir göstəricidir.

**- İlham müəllim, yeri gəlmişkən, bir məsələni də soruşum, son günlər sosial şəbəkələrdə bəzi şəxslər şayiələr yayırlar ki, guya xəstəxanalarda virusa yoluxan xəstələrin müalicəsinə ciddi yanaşılmır. Təbii ki, əsassız iddialardır. Prosesin şahidi kimi sizin yanaşmanız necədir? Xəstəxanalarda virusa yoluxan xəstələrin müalicəsinə necə yanaşılır?**



*"Bizim kimlərisə yoluxdurmamaq məsuliyyətimiz də olmalıdır..."*

- Səhiyyə sisteminin üzərində çox böyük gərginlik var. Xeyli sayda xəstə var və bizim səhiyyə sistemimiz də buna hazır deyildi. Yalnız bizdə deyil, ümumiyyətlə, bütün dünyada səhiyyə sistemi birdən-birə bu qədər xəstəni müalicə etmək imkanına malik deyildi. Əlbəttə, inkişaf etmiş Avropa ölkələrində də biz bu problemlərin yaşandığını gördük. Artıq bu sistem qurulub, xəstəxanalarda xəstələr tam izolyasiya olunur, ətraf aləmdən təcrid edilir, yeməklə təmin olunurlar. Mən özümün müalicə aldığım xəstəxana ilə bağlı deyə bilərəm ki, burada həkimlərdən, tibb bacılarından, ümumiyyətlə, tibbi personaldan çox razıyam Əllərindən gələni etməyə çalışırlar ki, hər şey yaxşı olsun. İnanıram ki, başqa xəstəxanalarda da vəziyyət belədir. Biz özümüz xəstə olsaq da, tibbi personala dəstək olmağa çalışmalıyıq. Onlar burada necə böyük əziyyətlə çalışırlar, onu biz görürük. İsti havada xüsusi geyimlərdə xəstəyə xidmət göstərmək elə də asan deyil. Mən bizim sağlamlığımızın keşiyində duran tibb işçilərinə təşəkkür edirəm, Allah həmişə köməkləri olsun, onlar da ailələrindən uzaq düşüblər. Bu bir bəladır, bir xəstəlikdir, inşallah, öhdəsindən tezliklə gələrik.

**- Bilirsiniz, bəzi vətəndaşlarımız virusa yoluxsalar da, həkimə, təcili tibbi yardıma müraciət etmir və öz xəstəliklərini gizlətməyə çalışırlar. Təbii ki, bu da daha çox insanın yoluxması ilə nəticələnir. Son olaraq vətəndaşlara nə deyərdiniz?**

- Vətəndaşlarımıza müraciət edib onu demək istəyirəm ki, qorxmaq lazım deyil. Bundan çox da təşvişə düşsək, özümüzə problemlər yaradarıq. Amma qorunmaq lazımdır. Çalışmaq lazımdır ki, yaxın müddətdə bu virusa yoluxmasınlar. Çünki, bayaq qeyd etdiyim kimi, səhiyyə sistemi xeyli yüklənib, insanların xəstəxanalara qəbul olunması ilə bağlı problemlər var. Bunun nəticəsində də müalicə prosesi xeyli uzanır, istər-istəməz, insan evdə müalicə alanda təşvişə düşür. Amma həkim nəzarətində olanda problem olmur. Hər hansı bir xoşagəlməz situasiya meydana gələrsə, həkimlər dərhal onun ən optimal çıxış yolunu tapır və xəstəni yönləndirirlər. Amma evdə olanda bizdə bu imkanlar olmur. Ona görə də maksimum təmasdan çəkinmək, maska və əlcək taxmaq, sosial məsafə gözləməyə çalışmaq lazımdır. Bu, həyatımızın yeni bir reallığıdır. Mən başa düşürəm, insanlar bir-birilə ünsiyyətdə olmaq istəyir, indiki tələblərə uyğunlaşmaq çətindir. Ancaq utanmaq lazım deyil. Burada məqsəd bizim kimdənsə çəkinməyimiz deyil ki, kimdənsə yoluxmayaq, burada bizim kimlərisə yoluxdurmamaq məsuliyyətimiz də olmalıdır. Biz bu prizmadan yanaşmalıyıq ki, heç kimi yoluxdurmayaq. Redaksiya əməkdaşları da təsdiqləyə bilər ki, virus məsələsi meydana çıxandan mən bu məsələyə çox ciddi yanaşmışam, maskadan, əlcəkdən istifadə etmişəm, sosial məsafə saxlamışam. Hətta mən əməkdaşlarıma tapşırmışdım ki, heç kəs mənim otağıma maskasız girməsin. Amma bunun nəticəsidir ki, özümün yoluxmağıma baxmayaraq, redaksiyada heç kimdə virusun simptomları aşkarlanmadı.

Əgər mən onu etməsəydim, bir neçə nəfəri də yoluxdurmuş olardım. Bu baxımdan, özümü çox rahat hiss edirəm ki, qoruyucu tədbirlərdən ciddi şəkildə istifadə etmişəm, nəticədə ətrafımda, dostlarım, iş yoldaşlarım arasında bu virusa bir nəfəri də yoluxdurmamışam. Əgər biz hamımız bu şəkildə çalışarıqsa, bu xəstəliyin tempinin aşağı düşməsinə səbəb ola bilərik. Ona görə də insanlar maksimum əhalinin gur olduğu yerdə olmasınlar, marketlərə, apteklərə girərkən diqqətli olsunlar. Diqqətli olarıqsa, xəstəliyin səviyyəsini bir qədər aşağı sala bilərik.

***İradə SARIYEVA***

# Erməni deputat ölkəsinin "artıq it yerinə də qoyulmadığını" dedi... "Əliyevlə, Nazarbayevlə telefon danışığı oldu, Paşinyanı buna da layiq görmədilər"...

**Rusiya və Ermənistan arasında getdikcə pisləşməkdə olan münasibətlərin sonuncu üçün ciddi problemə çevriləcəyinə dair xəbərdarlıqların sayı artır. Eyni zamanda Ermənistanda o da xüsusi diqqət mərkəzinə gətirilir ki, Kreml İrəvandan üz döndərir və Nikol Paşinyan iqtidarını qəbul etmir.**



Bu xüsusda diqqət ona da yönəldilir ki, Nikol Paşinyan iyunun 24-də Moskvada baş tutacaq İkinci Dünya müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş tədbirdə iştirak etməyəcək.

Erməni politoloq Vigen Hakobyan bildirib ki, mövzu özlüyündə problematik ola bilər. Onun sözlərinə görə, əslində bir çox liderlər bu tədbirdə iştirak etməyəcək. Amma onlar prezident Vladimir Putinə bunu açıq şəkildə telefonda desələr də, Paşinyanın buna cəsarəti çatmayıb. Həm də Paşinyan Putinin onunla telefonla belə danışmaqdan imtina edəcəyindən ehtiyat edir:"Bu durumda Paşinyan koronaviriusu da getməmək üçün bəhanə qismində istifadə edir. Düşünmürəm ki, Ermənistanda ən azından koronavirusla bağlı vəziyyət bir neçə saat ərzində dəyişəcəkdi. Ermənistan-Rusiya dövlətlərarası münasibətləri konkret şəxslərdən asılı deyil. Lakin düşünürəm ki, şəxslərarası münasibətlərə, qarşılıqlı etimada mənfi təsir göstərən bəzi daxili siyasi problemlər var. Əgər diqqət yetirmisinizsə, Nikol Paşinyan məktub yazıb, yəni Putinlə telefon danışığı belə olmayıb. Bu da hansısa nüansdan xəbər verir. Adətən, kimlər getməyəcəksə, telefon danışıqları edib, İlham Əliyevlə, Nazarbayevlə telefon danışığı oldu. Paşinyanı isə heç buna da layiq görmədilər".

Erməni politoloq Yervand Bozoyan isə qeyd edir ki, "Çiçəklənən Ermənistan" partiyası ilə bağlı məsələdə Nikol Paşinyanın İkinci Dünya müharibəsində qazanılmış qələbənin 75 illiyinə həsr olunan parad keçirilməsi planlaşdırılan Moskvaya səfərinin ləğv olunmasına təsir edib. Çünki Paşinyan bununla Moskvanı daha da qəzəbləndirdiyini yaxşı bilir:"Ermənistan baş nazirinin qərarı, böyük ehtimalla, daxili siyasi problemlərlə və gərginliklə, xüsusilə də "Çiçəklənən Ermənistan" partiyası ilə bağlı məsələ ilə əlaqəlidir". Erməni politoloq "Çiçəklənən Ermənistan" partiyası ilə bağlı problemin Moskvanı qıcıqlandırdığını istisna etməyib. Bozoyanın sözlərinə görə, mövcud mürəkkəb qarşılıqlı münasibətlərdə Paşinyana başa salıblar ki, Ermənistanda yeganə rusyönümlü parlament fraksiyasına hücum edilməsindən narazıdırlar:"Paşinyanın başqa əsaslandırmalar gətirməyə çalışacağı anlaşılandır, ancaq Tsarukyana qarşı baş verənlərin əslində seçici ədalət olduğu hamı üçün aydındır, çünki Ermənistanda seçkilər on illərdir mütəmadi olaraq saxtalaşdırılıb və seçki rüşvətinin ataları 1995-1996-cı illərdə Nikol Paşinyanın ideoloji dostları olublar. Təəssüflər olsun, sonralar bu ənənə davam edib, lakin məlum olur ki, bütün bunlar üçün Tsarukyanı məsuliyyətə çağırmağa çalışırlar. Bu, Rusiyanı da ciddi narazı salır".

Erməni parlamentinin deputatı Gevorq Petrosyan bu vəziyyətdə Rusiyanın və erməni diasporunun İrəvandan üz döndərəcəyini bildirir:"Tsarukyan həbs olunsa, Ermənistana hansısa investisiya qoyulacağını unudun". O qeyd edib ki, Rusiya da daxil olmaqla, xarici dünya Ermənistan hakimiyyətinin üzünə tüpürür:"Artıq it yerinə qoymurlar. Dövlət büdcəsi yalnız vətəndaşları cərimələmək hesabına doldurulacaq. Və məhz kiçik ölkəni itiririk. Sonra deməyin ki, nə olduğunu gördün, xəbərdarlıq etmədin".

Onu da bildirək ki, bütün xəbərdarlıqlara baxmayaraq, Paşinyan Tsarukyanı həbs etməkdə israrlıdır. Hətta Ermənistan Milli Təhlükəsizlik Xidməti "Çiçəklənən Ermənistan" partiyasinin lideri haqqında seçilən qətimkan tədbiri haqqında qərardan apelyasiya şikayəti verib. Bundan əvvəl isə Ermənistanın birinci instansiya məhkəməsi Tsarukyan barədə həbs qətimkan tədbiri seçməkdən imtina etmişdi. Amma Paşinyanın göstərişi ilə Milli Təhlükəsizlik Xidməti Tsarukyanı tutmaqda israrlıdır. Qurum Tsarukyan barədə məhkəməyə bir yox, bir neçə fakt və ya informasiya təqdim etdiyini bildirib. Milli Təhlükəsizlik Xidməti "Çiçəklənən Ermənistan" partiyasının aktivistlərinin mənzillərində 80-dən çox axtarış apardığını və burada seçicilərin alınmasını təsdiq edən faktlar aşkarladıqlarını bildirib. Qeyd edək ki, Tsarukyan 2017-ci ildə seçicilərin səsini pulla almaqda və dövlətə 62 milyon dollar ziyan vurmaqda ittiham edilir. Amma onun ətrafında baş verənlər artıq Rusiyanı daha ciddi şəkildə narazı salır.

Erməni politoloq Suren Sarkisyan Nikol Paşinyanı bu fonda ciddi problemlər gözlədiyini bildirir. Sarkisyanın sözlərinə görə, Rusiya-Ermənistan münasibətlərindəki problemlər hazırda ictimai sahədə peyda olur:"Ümumi vəziyyət belədir: Rusiya hakimiyyəti tərəfindən Ermənistanın bəzi rəsmilərinə qarşı müəyyən gərginlik, inamsızlıq var".

**O xatırladır ki, Tsarukyan faktiki olaraq Paşinyan hakimiyyətinə qarşı mübarizə elan edib və bu məsələ üzrə digər siyasi partiya və ictimai təşkilatlarla konsultasiyalara başlayacağını deyib. Bu durumda Paşinyan Moskvanın mövqeyini nəzərə almadan Tsarukyana qarşı hücuma keçib. İndi yaranmış vəziyyətdə o geri çəkilsə, müxalifət tərəfindən devriləcəyindən qorxur. Geri çəkilməsə, Moskva onu əzməyə davam edəcək.**

*Nahid SALAYEV*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan düşmən üzərində aviasiya gücünü artırır... Rusiyanın Su-35 və MiQ-35 çoxfunksiyalı qırıcıları...

**Ordusunun döyüş qabiliyyətini mütəmadi olaraq yüksəldən Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində güc amilindən istifadəni istisna etmir. Bu fonda ordumuzun mümkün Qarabağ əməliyyatlarında qalibiyyətini tezləşdirəcək hərbi texnikalarla təminatına daim xüsusi önəm verilir.**

İyunun 26-da Azərbaycan ordusu günü ərəfəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənov yerli telekanallara verdiyi müsahibədə bu xüsusda bir sıra maraqlı məqamlara toxundu. Silahlı Qüvvələrinin hazırkı vəziyyəti və imkanları barədə bəzi təfərrüatları açıqlayan nazir, xüsusilə silah alışı haqqında maraqlı qeydlər etdi. Azərbaycanın bu məsələyə mümkün hərbi əməliyyatların gedişini nəzərə alaraq elmi baxımdan yanaşdığını vurğulayan nazir bildirdi ki, bu, hərbi aviasiyaya da aiddir. Zakir Həsənovun sözlərinə görə, Azərbaycan Hərbi Hava Qüvvələrinin əsas hücum təyyarəsi hazırda Su-25-dir. Nazirin fikrincə, bu çox yaxşı zirehli təyyarədir, çoxmanevrlidir, dağlıq ərazilərdə döyüşmək üçün mükəmməldir. Bundan başqa o bildirib ki, bir sıra Avropa ölkələri, Belarus və İsrailin yardımı ilə aviasiya parkındakı Su-25-lər modernləşdirilib. Eyni zamanda, Müdafiə Nazirliyinin başçısı vurğulayıb ki, Azərbaycan müasir yeni nəsil təyyarələrinin əldə edilməsi imkanlarını nəzərdən keçirir. Rusiyalı hərbi mütəxəssis, Milli Müdafiə jurnalının baş redaktoru İqor Korotchenko isə qeyd edir ki, Su-25 əslində zamanın sınanmış yaxşı hücum təyyarəsidir:"Ən çox düşmən atəşi şəraitində yerüstü hədəflərə zərbə endirməyə uyğunlaşdırılıb. Bu təyyarələri təcrübəli pilotlar idarə etsələr və təyyarələrə düzgün xidmət edilərsə, bunlar vasitəsilə rəqibə sərt zərbələr endirmək olar. Su-25-lər bu xüsusda ciddi bir potensiala malikdir. Eyni zamanda, Azərbaycana yeni döyüş maşınları, xüsusən Su-35 almaq barədə düşünmək lazımdır. Azərbaycan Hərbi Hava Qüvvələrinin yenilənməsi qaçılmazdır və ölkənin Rusiyadan Su-35-i alması, mənim fikrimcə, ciddi bir qərar olacaq. Bu, Azərbaycanın hərbi gücünü daha da artıracaq". Hərbi ekspert hesab edir ki, Azərbaycan bir və ya iki təyyarə almamalı, əksinə, ən azı bir eskadrilyanın yenidən silahlanmasına görə alış həyata keçirməlidir:"Bu, ölkənin hərbi gücünə çox ciddi bir töhfə olardı. Su-35 çoxfunksiyalı bir nəsil 4 ++ qırıcısıdır, istənilən hədəfə - quruya, hava və dənizə çata biləcək yeni silahlardan istifadə edir. Bu maşınların alınması Azərbaycanın hərbi imkanlarını xeyli artıracaq. Bu gün Azərbaycan ordusu bölgədə və postsovet məkanında ən yaxşılardan biridir. Ölkə prezidenti İlham Əliyev Silahlı Qüvvələrin gücləndirilməsinə çox ciddi diqqət yetirir. Məqsədə çatmağın yollarından biri Rusiya ilə hərbi-texniki əməkdaşlıqdır. Bu günə qədər Rusiya Azərbaycana dəyəri 5 milyard dollardan çox olan silah verib. İnanıram ki, Rusiya silahlarının Azərbaycana verilməsinə dair yeni müqavilələr olacaq və bu da Azərbaycan Respublikasının təhlükəsizliyinin möhkəmləndirilməsinə ciddi töhfə sayıla bilər". Xatırladaq ki, bu il aprelin əvvəllərində Azərbaycan Hərbi Hava Qüvvələrinin bir qrup mütəxəssisi müasir Su-35 və MiG-35 qırıcıları istehsal edən Rusiyanın hərbi-sənaye kompleksinin müəssisələrində olub. "Rosoboroneksport" nümayəndələri və təyyarə zavodlarının rəhbərliyi ilə görüşlərdə döyüş maşınlarının taktiki və texniki, istismar və texniki xüsusiyyətləri, eləcə də digər məsələlər müzakirə edilib. Azərbaycan tərəfi Rusiya istehsalı olan ən qabaqcıl döyüş təyyarələrinin alınmasında ölkənin maraqlı olduğunu bildirib. Bu fonda yaxın tezlikdə Rusiyadan yeni təyyarələrin alınması tamamilə gözlənilən sayılır. Azərbaycanın Rusiyanın Su-35 və MiQ-35 çoxfunksiyalı qırıcıları ilə maraqlanması, əslində çoxdan Ermənistanda ciddi narahatlıqla qarşılanır. Erməni hərbi ekspert Artsrun Hovhannisyan bildirib ki, bu gözlənilən idi, Ermənistan Su-30-lardan sonra Azərbaycanın onun ordusuna qarşı daha güclü silahlarla çıxmağa çalışacağını bilirdi:"Müəyyən mənada bütün bunlar gözlənilən idi. Və sadəcə başa düşmək lazımdır ki, hansı konsepsiyanı inkişaf etdirməyə çalışacaqlar. MiQ-29-dan MiQ-35-ə keçid çox maraqlıdır". Hovhannisyan qeyd edib ki, Azərbaycanın hansı yolla gedəcəyini zaman göstərəcək. Onu da xatırladaq ki, hər iki təyyarədə hədəfləri aşkar etmək üçün yeni tip radiolokasiya stansiyaları quraşdırılıb. Açıq arxitekturası olan hər iki təyyarə lokal müharibənin aparılmasında mühüm rol oynayan radioelektron mübarizə vasitələrindən ibarət rəqəmsal müdafiə kompleksləri ilə təchiz edilib. Bu, həmin təyyarələrə bütün növ müasir aviasiya silahlarından istifadə etmək imkanı verir. Ən yeni texnologiyaların tətbiqi ilə istehsal edilən Su-35 təyyarəsi "hava-hava" sinfinə aid yeni R-37M səsdən sürətli raketlərdən istifadə edir və məhz buna görə də 300 kilometr uzaqlıqda olan hava hədəflərini məhv etmək imkanına malikdir. Düşmənin hava hücumundan müdafiə vasitələrinin əhatə etdiyi zonadan kənarda qalmaqla yüksək dəqiqlikli silahlarla yerüstü və suüstü hədəflərə effektiv zərbələr endirməyə malik olan Su-35 təyyarəsi 12, MiQ-35 təyyarəsi isə 9 ədəd müxtəlif tipli aviasiya məhvetmə vasitələri daşımaq üçün asqı nöqtəsinə malikdir. Su-35 və MiQ-35 qırıcılarının fərqləndirici xüsusiyyətlərindən biri də uzaq məsafədə eyni vaxtda bir neçə hava hədəfinin aşkar edilməsi, izlənməsi və məhv edilməsidir. Azərbaycan Hərbi Hava Qüvvələrinin bu növ qırıcı təyyarələrlə gücləndirilməsi döyüş əməliyyatları zamanı onlara Ordumuzun qoşun növləri və qisimlərini havadan dəstəkləməklə yanaşı düşmənin yerüstü qoşun qruplaşmasını, hərbi və strateji əhəmiyyətli obyektlərini məhv etmək imkanı verəcək. Yaxın tezlikdə bu təyyarələrdən müəyyən partiyanın ölkəmizə gəlişi gözlənir. Bundan başqa, ordumuz indi istifadəsində olan Su-25 təyyarələrinin bundan sonra da istismarını davam etdirmək istiqamətində müvafiq addımlar atır. Bu yaxınlarda isə bəlli olub ki, Gürcüstan Su-25 təyyarələrinin istehsalını Azərbaycanla birgə inkişaf etdirə bilər. Bunu hərbi ekspert Vaxtanq Maisaya da təsdiq edir. Onun sözlərinə görə, hərbi təyyarələrin istehsalının bərpası məsələsində Gürcüstanın Ukrayna ilə əməkdaşlıq edəcəyi ehtimal olunur:"Ukraynada aviasiya sahəsinin möhkəm təməli var. Bu sahə Azərbaycanla birgə də inkişaf etdirilə bilər. GUAM ölkələrinin potensialından da istifadə etmək mümkündür". Bu təyyarələr döyüş meydanında, istənilən hava şəraitində, gecə-gündüz quru qoşunlarının bilavasitə dəstəklənməsi və müxtəlif obyektlərin məhv edilməsi üçün təyin edilib. Su-25 təyyarəsi döyüşdə sağqalma və yüksəkmüdafiəli sistemlərə malikdir. Əsas diqqət pilot kabinəsinin və yanacaq sisteminin təhlükəsizliyinə yönəldilib. Modernizə edilmiş Su-25 döyüş təyyarəsinin güclü döyüş kompleksinə müxtəlif toplar, aviabombalar, idarəolunan və idarəolunmayan "hava-yer", idarəolunan "hava-hava" raketləri daxildir. Ümumilikdə təyyarəyə 30 növ silah quraşdırıla bilər. İndinin özündə də Azərbaycan aviasiya sarıdan Ermənistanla müqayisədə kifayət qədər böyük üstünlüyə malikdir. Hazırda Azərbaycan Hərbi Hava Qüvvələrinin aşağıdakı inkişaf istiqamətləri mövcuddur: yeni təyyarələrin və vertolyotların alınması; mövcud aviasiya texnikalarının modernləşdirilməsi; uçuş idarəetmə mərkəzlərinin və komanda məntəqələrinin modernləşdirilməsi; aviasiya uçuş heyətinin, həmçinin idarəetmə personalının təcrübəsinin artırılması, müasir təhsil; yerli istehsal hesabına aviasiya parkının genişləndirilməsi. İndiyə qədər isə müharibə şəraitinin mövcudluğu və əlverişli relyef, həmçinin keçmiş sovet ordusunun Cənubi Qafqazdakı əsas aviabazalarının Azərbaycanda yerləşməsi müstəqillik dövründə Azərbaycan Silahlı Qüvvələrinin bu birləşməsinin dinamik inkişafına imkan verib. Kadr heyəti baxımından da Azərbaycan mühüm üstünlüyə malikdir. Xatırladaq ki, Azərbaycanın pilotları Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbində hazırlanır. Xarici ölkələrdən Türkiyə, Ukrayna, ABŞ, həmçinin bir sıra NATO ölkələri ilə təcrübə mübadilələri aparılır. Hazırda Azərbaycanın hərbi təyyarəçiləri MDB məkanında ən çox uçuş keçirən hərbi pilotlar sayılır.

İndiyə qədər olan praktika hərbi əməliyyatlarda hərbi aviasiyanın mühüm üstünlükləri olduğunu bir daha göstərir. Azərbaycan Silahlı Qüvvələrində hərbi təyyarə parkının genişlənməsini də məhz bu baxımdan müsbət saymaq olar. Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda maddi-texniki imkanlar baxımından yüksək və ən çox döyüş təyyarəsi olan ölkə sayılır. Müxtəlif məlumatlara görə, hazırda 8000 nəfər personalın xidmət etdiyi Azərbaycan aviasiya arsenalına 200-ə yaxın döyüş təyyarəsi, 160-a yaxın zərbə helikopteri, həmçinin 50-yə qədər yardımçı təyyarə və helikopter daxildir. Onların sayının tezliklə daha da artması gözlənir. Artıq bəllidir ki, İtaliyanın "Leonardo" şirkətinin "M-346 Master" reaktiv təlim-məşq təyyarəsinin bir neçəsi ölkəmizə gətirilib. Ümumiyyətlə, "Leonardo" korporasiyasının Azərbaycanda həyata keçirilən bir neçə layihəsi mövcuddur. Bu korporasiyanın tərkibinə daxil olan "Agusta Westland" şirkəti Azərbaycana helikopterlərin satışını həyata keçirib. Pakistandan da yeni təyyarələrin alınması gözlənir və bu da Azərbaycanı daha güclü hala gətirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Türkiyə əsassız erməni iddiaları ilə mübarizənin strategiyasını hazırlayır - Azərbaycan üçün yeni perspektiv açılır

***Faiq Ələkbərli:** ”Bu strategiyanın hazırlanmasının bizim üçün ən mühüm cəhətlərindən biri...”*



*”Yaradılacaq bu qurum beynəlxalq aləmdə bir çox məsələnin, xüsusən də erməni saxtakarlığının üzə çıxmasına, aydınlaşmasına böyük şərait yaradacaq”*

**100 ildən artıqdır ermənilər qondarma "erməni soyqırımı" yalanları ilə beynəlxalq aləmdə "at oynadır"lar, ayrı-ayrı dövlətləri, xalqları öz saxta iddialarına inandırmağa cəhdlər edirlər. Əlbəttə, dünyanın bir çox dövləti tarixdə "erməni soyqırımı" deyilən bir olayın baş vermədiyinə inanır, bunun bir erməni saxtakarlığı olduğunu dərk edir.**

Amma, bununla belə, ermənilər uzun illərdir onlara havadarlıq edən bəzi dövlətlərin dəstəyinə və erməni lobbisinə arxayın olaraq qondarma "erməni soyqırımı"nı təbliğ etməkdə davam edirlər.

"BakuPost"un məlumatına görə, Türkiyə qondarma "erməni soyqırımı" iddiaları ilə mübarizə üçün cümhuriyyət tarixində bir ilkə imza atır. Belə ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan əsassız erməni iddiaları ilə mübarizə üçün strategiya yaradılması barədə təlimat verib.

Bu strategiya Türkiyənin 1915-ci il hadisələri ilə bağlı beynəlxalq arenada özünü daha yaxşı anlatmasına imkan yaradacaq.

Bununla bağlı açıqlama ötən gün keçirilən brifinqdə verilib. Brifinqdə qeyd edilib ki, Türkiyədə erməni iddiaları ilə birbaşa maraqlanan, bu məsələ ilə bağlı arqument və strategiya hazırlayan bir qurum yoxdur.

Yeni yaradılacaq qurum hökumətdən asılı olmayacaq, məsələyə ancaq siyasi müstəvidən deyil, eyni zamanda, mədəni, tarixi, təbliğat, hüquq kimi bütün aspektlərdən yanaşacaq. İdarənin müstəqil ictimai bir cəmiyyət olması barədə qərar verilib.

Türkiyənin əsassız erməni iddiaları ilə mübarizə ilə bağlı hazırladığı strategiyanın Azərbaycan üçün də yeni perspektiv açdığı məlumdur.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli mövzunu "Bakı-Xəbər"ə şərh edərkən bildirdi ki, gecikmiş addım olsa da, təqdirəlayiqdir. "Ona görə gecikmiş hesab edirəm ki, təxminən 100 ilə yaxındır ki, ermənilər və onların havadarları qondarma "erməni soyqırımı"ndan hər fürsətdə Türkiyəyə qarşı istifadə edirlər. Yəni bu təzə məsələ deyil. Bilirik ki, vaxtilə ermənilər bu saxta məsələyə Böyük Britaniyanı, ABŞ-ı, Sovet Rusiyasını, Fransanı və digər dövlətləri inandırmaq istəyirdilər. Bu gün də onlar bu prosesi davam etdirir, əsassız "soyqırım" iddialarından sui-istifadə edirlər. Bu anlamda Türkiyə dövlətinin, bu ölkənin rəhbəri Ərdoğanın bu məsələ ilə bağlı daha dəqiq və konkret nəticəyə gəlməsi müsbət haldır. Türkiyədə əsassız erməni iddiaları ilə bağlı belə bir strategiyanın hazırlanması çox mühüm addımdır. Bu təkcə Türkiyə üçün deyil, Azərbaycan üçün də mühümdür. Hesab edirəm ki, bu məsələdə türk və müsəlman dövlətləri, İslam Əməkdaşlığı Konfransı Təşkilatı birlik nümayiş etdirməlidir. Yəni bu mübarizə yalnız Türkiyə və Azərbaycanla məhdudlaşmamalıdır. Ancaq, əlbəttə, ilk növbədə, bu məsələdə Türkiyə və Azərbaycanın daha sıx əməkdaşlıq etməsi vacibdir. Türkiyəyə qarşı qondarma, əsassız "erməni soyqırımı" məsələsində beynəlxalq aləmdə təhdid varsa, bu təhdid Azərbaycan üçün də olub və davam edir. Ermənilər və ermənilərin havadarları bu qondarma məsələdən təkcə Türkiyənin deyil, həmçinin, Azərbaycanın da əleyhinə istifadə edirlər. Ona görə də Türkiyənin dövlət başçısı tərəfindən bu strategiyanın hazırlanmasına start verilməsi çox mühüm hadisədir. Fikrimcə, yaradılacaq bu qurum beynəlxalq aləmdə bir çox məsələnin, xüsusən də erməni saxtakarlığının üzə çıxmasına, aydınlaşmasına böyük şərait yaradacaq.

Azərbaycan və Türkiyə alimlərinin Türkiyədəki və Azərbaycandakı, o cümlədən də dünyanın kitabxana və arxivlərində birgə işləmələri çox vacibdir. Yeri gəlmişkən, bu prosesdə dünyanın istənilən obyektiv alimi, tarixçisi iştirak edə bilər. Lap elə erməni alimlərinin özləri də iştirak etsinlər. Türkiyə rəsmiləri, xüsusən də Ərdoğan dəfələrlə "biz arxivlərimizi açırıq, Ermənistan da öz arxivlərini açsın" deyiblər. Azərbaycan da bu məsələdə öz arxivlərini açır və Türkiyəyə dəstək verir. Bu bizim üçün də lazımdır. Məsələnin bu cür qoyuluşu Ermənistanı dalana dirəyəcək, daha da çıxılmaz vəziyyətə salacaq. Çünki əsl həqiqətlər üzə çıxandan sonra ermənilər və onların havadarları, onları dəstəkləyən məlum dövlətlər və beynəlxalq təşkilatlar da bundan sarsıdıcı zərbə alacaqlar. Əsl həqiqətlər ortaya çıxandan sonra beynəlxalq ictimaiyyətə aydın olacaq ki, ermənilərin və onların havadarlarının əsassız şəkildə iddia etdiyi kimi, 1915-ci ildə ermənilər "soyqırım" edilməyib, bu zaman daha çox Azərbaycan və Türkiyə türkləri qırğına məruz qalıb, həlak olub, erməni terrorundan əziyyət çəkiblər"

F.Ələkbərli hesab edir ki, Türkiyə dövlətinin hazırladığı bu strategiya Azərbaycan üçün yeni yollar açır. Onun sözlərinə görə, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan türkləri erməni zorakılığı ilə üzləşib, minlərlə azərbaycanlı, müsəlman ermənilər tərəfindən qətlə yetirilib, xalqımız soyqırıma məruz qalıb. "Bu strategiyanın hazırlanmasının bizim üçün ən mühüm cəhətlərindən biri odur ki, Azərbaycan türklərinin 100 ildən çoxdur ermənilər tərəfindən soyqırımlara, qətliamlara, terrora məruz qaldığını bir daha dünyaya çatdıra biləcəyik. Arxivlərdən çıxan sənədlər, faktlar həqiqəti ortaya qoyacaq ki, 100 il əvvəl türklər erməniləri deyil, erməni daşnakları türkləri, müsəlmanları qətlə yetirib, onlara qarşı soyqırım aktları törədiblər. Ermənilər yaxın tarixdə işğal etdikləri Dağlıq Qarabağda insanları kütləvi olaraq qətlə yetirib, Xocalı kimi dünyada analoqu olmayan soyqırım törədiblər, xalqımıza Daşaltı, Ağdaban, Meşəli faciələri və sair faciələr yaşadıblar. Haqlı tərəf bizik, ermənilər deyil.

Düşünürəm ki, biz bu istiqamətdə Türkiyə ilə eyni istiqamətdə, birgə irəliləməliyik. Azərbaycanın tarixçiləri də bu prosesə qoşulmağa hazırdırlar. Çünki bizim bu məsələdə haqlı olduğumuz məlumdur. Bunu ermənilər də, onların havadarları da yaxşı bilirlər. Sadəcə, ortada siyasi və digər maraqlara görə həqiqətə göz yumur, öz maraqlarından çıxış edərək manipulyasiyaya yol verirlər. Ancaq, bütün hallarda, bu addımın atılması ermənilərin və onların havadarlarının iç üzünü ortaya çıxaracaq və bir çox həqiqət ortaya çıxdıqca, Türkiyənin və Azərbaycanın mövqeyi istər bölgədə, istərsə də dünyada daha da güclənəcək".

***İradə SARIYEVA***

# ABŞ-da keçmiş prezidentlərə hücumlar - heykəlləri uçururlar, Tramp Obamaya dövlət satqını dedi... Nə baş verir...

**ABŞ-da eks-prezidentlərə qarşı maraqlı kampaniya başlayıb. Nyu-Yorkda Amerika Təbiət Tarixi Muzeyinin qarşısında yerləşən sabiq Prezident Teodor Ruzveltin heykəlinin götürüləcəyi gözlənir. Bu barədə Nyu-York şəhərinin meri Bill de Blasionun ofisinin yaydığı açıqlamada bildirilib:**

"Amerika Təbiət Tarixi Muzeyi Teodor Ruzveltin heykəlinin sökülməsi ilə bağlı müraciət edərək, abidədə açıq şəkildə afroamerikalıların və hinduların tabe etdirilmiş və irqi cəhətdən alçaldılmış şəkildə təsvir edildiyini bildirib. Biz muzeyin istəyini dəstəkləyirik. Problemli heykəlin sökülməsi düzgün qərardır". Bundan əlavə, indiki prezident Donald Tramp özündən əvvəlki sələfi olan Obamanı vətənə xəyanətdə ittiham edib. Tramp bunu seçkiqabağı kampaniyasının izlənməsi ilə izah edib.

ABŞ-da keçmiş prezidentlərə yönəlik bu hücumları nə ilə izah etmək olar?

Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu vəziyyətin olması heç də yaxşı olmayan tendensiyadan xəbər verir:"Tramp ABŞ-a ictimai-siyasi xarakterli böhran yaşadır. Onun özünün siyasəti də ABŞ-ı qlobal güc kimi göstərməyə imkan vermir. Görün orada kimin heykəlini uçurmaq istəyirlər? Rüzvelt kimi dahi bir adamın heykəlini hər hansı bəhanə ilə uçurmaq ABŞ-a başucalığı gətirə bilməz. Bunun üçün ciddi əsas da görünmür. Həmin məsələni qaldıranların fikri ictimai rəyi tam əks etdirə bilməz. Ruzvelt İkinci Dünya müharibəsində ABŞ-ı qələbəyə çatdıran, 4-cü dəfə Prezident seçilən, prezidentliyinin bir ilindən sonra vəfat edən yeganə şəxsdir. Vaşinqton qədər görkəmli şəxsiyyətdir. Bu məsələlər süni olaraq qaldırılır. Bunu kimin etdiyini söyləmək çətin olsa da, bəllidir ki, ABŞ-a heç bir xeyir vəd etmir. Obama ilə Tramp arasında yaşanan qarşıdurma üçün isə müəyyən əsaslar mövcuddur. Barak Obama həqiqətən də zəif bir prezident oldu. Qüdrətli bir ölkənin başına belə bir zəif prezidentin gəlməsi dünyanın özündə də mənfi tendensiyaların baş alıb getməsinə səbəb oldu. Heç Trampın özü də güclü prezident deyil. Onun Obamadan yüksək performanslar gözləməsi qəribə görünür.

*Qabil Hüseynli: "Ola bilsin ki, bu, seçkiqabağı dönəmdə dövriyyəyə buraxılan bir piar kampaniyasıdır"*




Bacarıqlı olmasa da, Obama heç olmasa bir çox məsələlərdə dürüst idi. Buna görə də, ABŞ-ın bəlli bir kəsimi tərəfindən sevilirdi. Çox təəssüf ki, Tramp özünün belə keyfiyyətləri ilə öyünə bilməz. Bu baxımdan da, onun Obamaya vətən xaini deməsi yerinə düşən hal deyil. Ümumiyyətlə, prezidentlərin bir-birini tənqid etməsi yaxşı qarşılanmır. Xüsusilə də ABŞ kimi ölkədə bu, rəğbətlə qarşılanmır. Ola bilsin ki, bu, seçkiqabağı dönəmdə dövriyyəyə buraxılan bir piar kampaniyasıdır. Amma belə piarın uğur qazanacağına, ictimai şüura təsir edəcəyinə inanmıram".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanı öz ölkəsində sabitliyin gələcəyi barədə açıq bədgüman edən səbəblər...

**Ermənistanın Baş naziri Nikol Paşinyan onlayn formada keçirilən brifinqdə bəyan edib ki, ölkədə epidemioloji vəziyyət çətin olaraq qalmaqdadır. Baxmayaraq ki, bununla bağlı vəziyyət sabit olsa da, problem bu sabitliyin qorunub saxlanmasına zəmanət verilməməsindədir.**

*Seyid Camal Əzimbəyli: "Paşinyan pandemiyanın yaxın günlərdə ölkədə..."*



O bununla bağlı bəzi məqamlara toxunub: "Təəssüf ki, yeni növ koronavirus infeksiyası səbəbindən Ermənistanda epidemioloji vəziyyət ciddi olaraq qalmaqdadır. Kifayət qədər sabit bir vəziyyətə gəldiyimizi söyləyə bilsək də, problem bu sabitliyin qorunub saxlanacağına dair heç bir zəmanət verilməməsidir. Bizim yeganə vasitəmiz bütün Ermənistan sakinləri tərəfindən epidemiyaya qarşı qaydalara ən ciddi şəkildə riayət edilməsidir. Həm də geniş yayılmış maarifləndirmə kampaniyasını davam etdiririk ki, soydaşlarımız üç sadə epidemiya əleyhinə qaydaya riayət etsinlər ".

O qeyd edib ki, maska ilə bağlı problem həll olunub və bazarda onun qiyməti düşür. Bildirib ki, maskalar get-gedə insanlara daha əlçatan olur. O, dövlət büdcəsi hesabına çoxlu sayda oksigen cihazı alındığını da xatırladıb.

Maraqlıdır, Paşinyan ölkədə sabitliyin pozulmasından niyə belə qorxur? Ermənistanda nə baş verir?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin fikrincə, Paşinyanın bu qədər narahat olması bir neçə amillə bağlıdır: "Problem ondadır ki, Ermənistanın əhalisi az olsa da, bu ölkədə koronavirus infeksiyası sürətlə yayılır. Virusun yayılma sürətinə görə Ermənistan bir sıra ölkələri qabaqlayıb. Ermənistanda son sutka ərzində daha 418 nəfər yeni növ koronavirus infeksiyasına yoluxub. Nəticədə ölkədə koronavirusa yoluxanların sayı 21min nəfəri ötüb. Son sutka ərzində koronavirusa yoluxan 12 nəfər ölüb və bununla da virusa yoluxma nəticəsində ölənlərin sayı 372 nəfərə çatıb. Paşinyan pandemiyanın yaxın günlərdə ölkədə daha geniş miqyas alacağından qorxur. Nəticədə həm virusa yoluxanların, həm də bundan ölənlərin sayı qat-qat çox olacaq. Paşinyan bir qədər əvvəl demişdi ki, vəziyyət kritikdir. Koronavirus xəstələri üçün ayrılan 1857 çarpayıdan 1551-i tutulub, 236 reanimasiya çarpayısından 204-ü məşğuldur. O hesab edir ki, proses belə davam etsə, xəstələri qəbul etməyə çarpayı çatmayacaq. O üzdən, belə narahatdır.

*"Narahatlığın digər səbəbi ölkədəki gərgin siyasi vəziyyətlə bağlıdır"*

Narahatlığın digər səbəbi ölkədəki gərgin siyasi vəziyyətlə bağlıdır. Məlum olduğu kimi, siyasi vəziyyət hər keçən gün daha da gərginləşir. Paşinyanın rəqibləri güc toplamaqda və ona qarşı hücumları artırmaqdadır. Bütün bunların üst-üstə düşməsi ölkədə hər an sabitliyin pozulması riskini artırır. Bu səbəbdən Paşinyanın sabaha inamı yoxdur".

Ermənistan koronavirus bataqlığına batdıqca, Paşinyan hakimiyyətinin problemləri bir az da artır. Gör vəziyyət nə yerə gəlib çatıb ki, Paşinyan hər an ölkədə sabitliyin pozulacağından ehtiyat edir.

***Vidadi ORDAHALLI***

**"Cənub Qaz Dəhlizi"nin artıq tam şəkildə tamamlanmasının bu il ərzində başa çatması gözlənilir. Belə vəziyyət dünya qaz bazarında Azərbaycanın mövqelərinin daha güclü hala gəlməsi və enerji daşıyıcılarından ölkənin daha çox gəlir əldə etməsi deməkdir.**

# Naxçıvanın qaz təminatında İrandan asılılıq tam aradan qalxır - Azərbaycan yenə bir addım öndə...

Bundan başqa, proseslər Azərbaycanın geosiyasi, geoiqtisadi baxımdan da mühüm üstünlüklər əldə etməsinə rəvac verir.

Digər tərəfdən, Türkiyə bazarına çıxmaqla Azərbaycan həm də Naxçıvan Muxtar Respublikasının qaz təminatı probleminin həllində yeni imkanlar qazanır. Bu arada qeyd edək ki, Türkiyədən Naxçıvan ərazisinə qaz xəttinin çəkilməsi istiqamətində işlərə artıq başlanıb. Belə ki, bir neçə gün əvvəl Türkiyənin borularla nəqletmə operatoru olan BOTAŞ şirkəti İğdır-Naxçıvan qaz kəmərinin tikintisi çərçivəsində tədqiqat və mühəndislik işlərini aparacaq şirkətin seçimi üzrə tender elan edib. BOTAŞ-ın məlumatına görə, tender təklifləri iyun ayının 30-dək qəbul ediləcək. Məlumata əsasən, tender diametri 12 düym, uzunluğu isə təxminən 82 kilometr olacaq qaz kəməri üzrə ərazi-tədqiqat, xəritə və müfəssəl mühəndislik işlərini əhatə edir. İşlər 270 gün ərzində həyata keçirilməlidir. Xatırladaq ki, SOCAR-la BOTAŞ arasında Naxçıvana qaz xəttinin çəkilməsi ilə bağlı anlaşma memorandumu 2010-cu ildə imzalanmışdı. Ötən müddət ərzində kəmərin tikintisinə başlanması mümkün olmayıb. Amma Azərbaycanın Türkiyəyə qaz satışını artırması məsələni yenidən aktuallaşdırır. Xatırladaq ki, bu ilin fevralında Azərbaycana səfərə gələn Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan prezident İlham Əliyevlə İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi məsələsini də müzakirə etdiklərini açıqlamışdı. Bildirmişdi ki, bu istiqamətdə işləri sürətləndirmək qərara alınıb.

Qeyd edək ki, hazırda Naxçıvanın qazla təminatı İranla svop əməliyyatları əsasında həyata keçirilir. Bu əməliyyata 2006-cı ildən başlanıb. Belə ki, SOCAR Astaradan qazı İran ərazisinə ötürür, İran Culfasından isə Naxçıvana qaz verilir. Muxtar Respublikanın illik qaz istehlakı 260-300 milyon kubmetr ətrafındadır. İndiyədək İran tərəfi Naxçıvanın qaz təchizatında hansısa axsamaya yol verməyib. Lakin İranın bu əməliyyat üçün müəyyənləşdirdiyi haqq çox yüksəkdir. Astaradan ötürülən hər min kubmetr qaza görə Naxçıvana 15 faiz az qaz verilir. Halbuki, dünyada belə əməliyyatlar üzrə faiz dərəcəsi 5-dən yüksək deyil. Azərbaycan bir neçə dəfə tranzit şərtlərinin yumşaldılması ilə bağlı müraciətlər etsə də rəsmi Tehran razılaşmayıb. Bu baxımdan Türkiyədən Naxçıvan ərazisinə qaz xəttinin çəkilməsi indi İranda da diqqətlə izlənilir. Bu xüsusda "Independent Farsi" nəşri yazır:"Coğrafi mövqeyi nəzərə alınarsa, İranın neft və qazın Xəzər dənizindən Fars körfəzi sahillərinə və oradan da qlobal enerji bazarlarına nəqli üçün münasib zəmini var. Amma ardıcıl sanksiyalar və İranın xarici siyasəti Tehranın Xəzər dənizi və Orta Asiya layihələrindən kənarlaşmasına səbəb olub. Bununla yanaşı, İran həmin regionların bəzi ölkələri ilə neft-qaz mübadiləsi həyata keçirə bilib. İndi Xəzərdə böyük həcmdə enerjidaşıyıcısı ehiyatlarına malik olan Azərbaycanın neft və qazla daxili təminat problemi yoxdur. Lakin Naxçıvan Muxtar Respublikasının enerji təchizatı daim Azərbaycan hakimiyyətinin narahatlıq mənbəyi olub. Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə heç bir ərazi-coğrafi əlaqəsi yoxdur. Bu bölgəyə qaz nəql etmək üçün Azərbaycan İranın enerji infrastrukturundan istifadə etməlidir. İranın bölgəyə qaz tədarük etməsi variantların yeganə olanı idi. Sanksiyalardan əvvəl Naxçıvan Muxtar Respublikasına qaz tədarük etmək üçün Azərbaycan hər il İrana orta hesabla 200-250 milyon kubmetr təbii qaz nəql edib. O, Azərbaycandan Naxçıvana Astara sərhədi ilə tədarük olunur. Bu durumda son illərdə Türkiyə orta perspektivdə tranzit və enerji mərkəzinə çevrilmək üçün enerji infrastrukturuna böyük sərmayə qoyub. Azərbaycan Türkiyənin enerji təhlükəsizliyində mühüm rol oynayır və may ayında ilk dəfə olaraq Türkiyənin ən böyük təbii qaz tədarükçüsü olub.




Türkiyə ölkə ərazisindən keçəcək boru kəmərlərini dəstəkləyir. O, həm tranzit hüququndan, həm də Bakı-Tiflis-Ceyhan kimi neft və qaz boru kəmərlərinin geosiyasi üstünlüklərindən istifadə edir. Önümüzdəki aylarda TAP layihəsinin rəsmi açılışı və "Türk Axını" layihəsinin ikinci xətti ilə Türkiyə Avropanın enerji təhlükəsizliyində, eyni zamanda, bu boru kəmərləri ilə geosiyasi maraqlarını təmin etmədə üstünlük qazanacaq. Bu günlərdə isə türk şirkəti BOTAŞ Naxçıvana qədər uzanacaq İğdır Təbii Qaz Boru Kəmərinin inşası layihəsini tenderə çıxarıb, Həmçinin, Türkiyə və xarici şirkətlər boru kəmərinin inşası üçün təkliflərini açıqlayıb. Türkiyənin təbii qaza olan ehtiyacı bu günə qədər boru kəmərinin inşasının qarşısını almış kimi görünür. Lakin qaz ehtiyatlarını şaxələndirmək üçün uğurlu siyasətini nəzərə alaraq, Ankara müvafiq kəməri çəkmə fürsətini əldən qaçırmayacaq.

Qeyd etmək lazımdır ki, Azərbaycan qazını Türkiyəyə çatdıran Cənubi Qafqaz boru kəmərinin gücünün artması ilə qazın Naxçıvana nəqli şərtləri getdikcə asanlaşıb. İğdır-Naxçıvan boru kəməri istismara verilsə, o, Naxçıvanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq. İranın Türkiyəyə qaz ixracı dəfələrlə çətinliklə üzləşsə də, o, Naxçıvana qaz tədarükünü kəsməməyə çalışıb. Lakin İranın muxtar respublikaya qaz tədarükü dünya qiymətindən baha olub. İran Azərbaycan qazının 15 faizini tranzit haqqı kimi istifadə edir, halbuki, digər oxşar müqavilələrdə tranzit haqqı 5 faizdir. Azərbaycan dəfələrlə İranı tranzit haqqını azaltmağa çağırıb, lakin bu tələb Tehranda xoş qarşılanmayıb. Yaxın aylarda İğdır-Naxçıvan boru kəmərinin inşası başlasa, bu boru kəməri üçün Azərbaycan və Türkiyənin iradəsini nəzərə alaraq, gələn il açılışını gözləməliyik. Azərbaycan qazının İranla mübadiləsi üçün mövcud müqavilənin müddəti isə 4 ildən sonra başa çatacaq və müqaviləni uzatmağa ehtiyac qalmayacaq. Barak Obama dövründəki sanksiyalar zamanı İran neft-qaz mübadiləsini müvəqqəti olaraq dayandırıb. Nüvə sazişi dövründə İran qonşu ölkələrə neft-qaz nəqlini bərpa edə bilib.

Yeni sanksiyalarla İran tranzit gəlirlərindən məhrum olub, ancaq qaz mübadiləsi Ermənistan və Azərbaycanla davam edib. Sanksiyalarla bağlı hasilatı azaltdığından, İran tədricən regional qaz bazarını itirir. O cümlədən Türkiyəyə ixraca dair müqavilənin uzadılması ehtimalı günbəgün azalmaqdadır. İğdır qaz kəmərinin Naxçıvana çəkilməsi ilə Azərbaycanın İrandan asılılığı aradan qalxacaq və İran həm tranzit haqqından, həm də geosiyasi imtiyazından məhrum olacaq. Enerji bazarındakı inkişaflar, xüsusilə pandemiyadan sonrakı dövrdə enerji istehsalçılarının regional və qlobal bazardakı paylarını qorumaq üçün bütün mövcud vasitələrdən istifadə edəcəyini göstərir. İxracın və deməli, xarici valyuta mənfəətinin artması və iqtisadi vəziyyətin yaxşılaşdırılması ilə enerji istehsal edən ölkələr qarşılıqlı asılılıq yaratmaqla regional sülh və təhlükəsizlikdə rol oynama imkanı qazanır. Bunu İranın diplomatik aparatı da nəzərə almalıdır".

***Ramil QULİYEV***

**Son günlər sosial mediada, mətbuatdakı müzakirə mövzularından ən birincisi koronavirusa yoluxmanın artması, xüsusilə özəl klinikalarda aparılan kompyuter tomoqrafiyası zamanı pasiyentlərdə "buzlu şüşə" effektinin çox aşkarlanmasıdır.**

***Adil Qeybulla:*** *"COVİD-19 ağciyərlərdə "buzlu şüşə" sindromuna səbəb olur, koronavirusa yoluxan xəstələrin ağciyərləri ömürlük zədələnir"*

***Suada Qasımova:*** *"Ağciyərlərin KT görüntüsündə "buzlu şüşə" görünməsi koronavirus diaqnozunda ən vacib və spesifik kriteriyadır"*

# Koronavirusa yoluxanların ağciyərlərində "buzlu şüşə" nədir...




Tanınmış jurnalist, "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev də özü və ailəsinin koronavirusa yoluxduğunu bildirərək "Facebook"dakı paylaşımında "buzlu şüşə"dən yazıb: "Koronavirus infeksiyası ilə mübarizə aparan xəstələrin sırasına mən və ailə üzvlərim də qoşuldu. Kompyuter tomoqrafiyası ilə aparılan müayinələr ağciyərlərimin hər iki payında "buzlu şüşə" aşkarladı. Müalicə "Neftçilər" xəstəxanasında davam etdirilir".

Maraqlıdır, koronavirusun ağırlaşmasının əsas əlaməti kimi təqdim edilən "buzlu şüşə", əslində, nədir?

Mərkəzi Gömrük Hospitalının rəsmi tərəfdaşı "Florence Nightingale" Xəstəxanalar Qrupunun tərkibində fəaliyyət göstərən "Şişli Florence Nightingale" Xəstəxanasında koronaviruslu xəstələri müalicə edən azərbaycanlı həkim Suada Qasımova bildirdi ki, xəstəxanaya bu şikayətlərlə gələn xəstələrdə koronavirusdan şübhələnmək və diaqnostika məqsədilə mütləq PCR testi etmək lazımdır: "PCR testi ilə birlikdə mütləq hər iki ciyərin rentgenoqrafiyası çəkilməlidir. PCR testinin nəticəsi neqativ və yüksək dərəcədə COVID-19 şübhəsi olarsa, xəstənin ağciyərlərinin aşağı dozada KT müayinəsi edilməlidir. Ağciyərlərin KT görüntüsündə "buzlu şüşə" görünməsi koronavirus diaqnozunda ən vacib və spesifik kriteriyadır. Antikor testləri elisa ilə birlikdə olmadığı təqdirdə diaqnostika etibarlı deyil".

Həmsöhbətimiz onu da əlavə etdi ki, diaqnoz qoyulan xəstələrin xəstəxanada saxlanmasına qərar verərkən istifadə olunan ən mühüm göstərici oksigen saturasiyasıdır: "Saturasiyası normal olan xəstələrdə hər iki ciyərin yarısından çoxunda tutulma varsa, xəstəxanaya yerləşdirilməsi doğru yanaşmadır. Bundan başqa, ümumi vəziyyəti yaxşı olan bəzi qadın xəstələrə həkimin klinik qərarına görə yataq rejimi qərarı verilə bilər"

Professor, həkim-ekspert Adil Qeybulla bildirdi ki, COVID-19 ağciyərlərdə "buzlu şüşə" sindromuna səbəb olur: "Koronavirusa yoluxan xəstələrin ağciyərləri ömürlük zədələnir. Virus keçsə də, ağciyərdəki zədələnmə bərpa olunmur. Aktiv pnevmoniya başlayan şəxslərdə ağciyərin rentgen mənzərəsində "buzlu şüşə" sindromu görünür.

**Koronavirusa yoluxan xəstənin ağciyəri zədələnibsə, sağaldıqdan sonra orada fibroz inkişaf edir. Fibroz ağciyər çatışmazlığına gətirib çıxarır. Fibroz nə qədər çoxdursa, ağciyər çatışmazlığı da o qədər artır. Bəzən elə hallar olur ki, xəstəyə prosesdən sonra ağciyər köçürülməsinə ehtiyac yaranır. Ağciyər xəstələri koronavirusa yoluxmaqdan və hipoksiyadan ölürlər".**

***Günel CƏLİLOVA***

---

**Ölkəmizin, vətəndaşlarımızın pandemiya ilə mübarizə apardığı, həkimlərimizin, tibb işçilərimizin və xəstəxanalarımızın bu istiqamətdə səfərbər olunduğu bir dövrdə bəzi qara qüvvələr camaat arasında ölkəmizdə guya həkim və xəstəxana qıtlığı olması barədə şayiələr yayırlar.**

# Pandemiya dövründə Azərbaycanda həkim və xəstəxana qıtlığı barədə şayiə yayanların məqsədləri...

***Rafis Bağırov:*** *"Ölkəmizdə həkimlərin sayı dünyanın bir sıra ölkələrində olan həkimlərin sayından çoxdur"*



Onlar iddia edirlər ki, guya koronavirusa yoluxan xəstələrin müalicəsi üçün tələb olunan həkim, tibb işçisi və xəstəxana sayı kifayət qədər deyil(?).

Məsələyə münasibət bildirən tanınmış tibb mütəxəssisi Rafis Bağırov baki-xebr.com-a bildirdi ki, bu, şayiədən başqa bir şey deyil. Bu gün Azərbaycanda həkimlərin sayı həddindən artıq çoxdur və xəstəxanalar da ölkə əhalisinin sayına tam olaraq uyğun gəlir. "Əksinə, Azərbaycanda, ümumiyyətlə, həkim qıtlığı yoxdur. Ölkəmizdə həkimlərin sayı dünyanın bir sıra ölkələrində olan həkimlərin sayından çoxdur. Bir misal çəkim, Ukraynada 50 milyondan çox əhali var. Bu ölkədə 4 tibb universiteti var və 4 tibb universitetinin il ərzində buraxdığı həkimlərin sayından bizim yeganə Dövlət Tibb Universitetinin buraxdığı həkimlərin sayı çoxdur.

Ona görə də Azərbaycanda həkimlər həmişə xəstə sarıdan korluq çəkirlər, bir də görürsən xəstə qıtlığı olur və bu da həkimlərə təsir edir. Pandemiya dövründə də ölkəmizdə həkim çatışmazlığı deyilən problem yoxdur. Hazırda poliklinikaların özündə peşəkar, savadlı həkimlərimiz var, onları da xəstəxana həkimləri kimi pandemiya ilə mübarizə prosesinə cəlb etmək lazımdır. Tibb Universitetinin 5-ci, 6-cı kurs tələbələrini də poliklinikalara cəlb etmək lazımdır ki, sahə həkimləri ilə bərabər bütün sahələri gəzsinlər, araşdırıb nə qədər COVID-19-a yoluxanların olduğunu müəyyən etsinlər. Çünki insanların böyük əksəriyyəti karantindən qorxurlar, təcili yardım çağırmırlar, evdə qalıb əhalini yoluxdurmağa başlayırlar. Ona görə də bizdə həkimlə bağlı çatışmazlıq yoxdur".

*"Azərbaycanda xəstəxana qıtlığı yoxdur"*

**Xəstəxanalara gəlincə, R.Bağırov hesab edir ki, xəstəxanalarımızla bağlı yayılan məlumatlar da əsassızdır. "Azərbaycanda xəstəxana qıtlığı yoxdur. Bu gün ölkəmizdə əhalimizin sayına uyğun çarpayı sayına malik olan xəstəxanalarımız var. Pandemiya dövründə də xəstəxanalarımız kifayət qədərdir" - deyə R.Bağırov vurğuladı.**

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, Səudiyyə Ərəbistanının Həcc və Ümrə Nazirliyi müsəlmanların müqəddəs Həcc ziyarəti ilə əlaqədar qərarı açıqlayıb. Krallığın müasir tarixində ilk dəfə olaraq ziyarət çox məhdud sayda və Səudiyyə Ərəbistanında olan yerli və əcnəbi zəvvarlar tərəfindən yerinə yetiriləcək. Xarici ölkələrdən Həcc ziyarətinə gələnlər olmayacaq.**



# Səudiyyənin xaricilər üçün Həcci qapatmasının Azərbaycan üçün də xüsusi faydaları var...

***Əhməd Qəşəmoğlu:** "Həcc ziyarətinə getmək arzusunda olan, lakin mövcud səbəblər üzündən gedə bilməyən vətəndaşlarımız ziyarətə xərcləyəcəyi vəsaiti..."*

Nazirliyin bəyanatında bildirilir: "Səudiyyə Ərəbistanı Həcc və Ümrə ziyarətinə gələn milyonlarla müsəlmana xidmət etməkdən qürur duyur, hər il onların təhlükəsizliyini təmin etmək üçün tədbirlər həyata keçirir. Biz qüdrətli Allaha dua edirik ki, ölkələrimizi pandemiyadan qorusun".

Səudiyyə Ərəbistanında 161 min nəfərin COVID-19-a yoluxması və 1300-dən çox insanın vəfat etməsi qərarın verilməsinə təsirini göstərib. Lakin çox məhdud sayda zəvvarın sayı açıqlanmayıb.

Səudiyyə Ərəbistanının əcnəbilər üçün Həcc ziyarətini ləğv etməsi nə qədər maliyyə vəsaitinin ölkəmizdə qalmasına səbəb olacaq.

Ekspertlər qeyd edirlər ki, bu qərarın pandemiya ilə mübarizə apardığı şəraitdə ölkəmizə faydası var. Bu baxımdan ki, ziyarətə xərclənəcək vəsaitlər artıq ölkəmizdə qalacaq və bu vəsaitin də pandemiya ilə mübarizədə əhəmiyyətli rolu olacaq.

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu hesab edir ki, pandemiya dövründə Azərbaycan vətəndaşlarının Həcc ziyarətinə getməməsinin ölkəmizin özü üçün böyük əhəmiyyəti var. Ə.Qəşəmoğlunun sözlərinə görə, bu həm 9-10 milyon manat vəsaitin ölkəmizdə qalması deməkdir, həm də vətəndaşlarımızın virusa yoluxma risqinin aşağı düşməsinə xidmət edir: "Bu il Səudiyyə Ərəbistanının əcnəbilər üçün Həcc ziyarətinə məhdudiyyət qoyması nəticəsində bizim vətəndaşlarımız da ziyarətə gedə bilməyəcəklər. Pandemiya şəraitində Azərbaycan vətəndaşlarının ziyarətə getməməsinin bir neçə tərəfdən böyük əhəmiyyəti var. Bilirsiniz ki, hər il ayrılan kvota üzrə

> *"Pandemiya şəraitində Azərbaycan vətəndaşlarının ziyarətə getməməsinin bir neçə tərəfdən böyük əhəmiyyəti var"*

vətəndaşlarımız ən azı 6 min manat xərcləməklə Həcc ziyarətinə gedirdilər. Mən bir dəfə hesablamışam ki, bu məbləğ il ərzində təxminən 9-10 milyon manat vəsait edir.

Keçən il Həcc ziyarəti üçün Azərbaycana 1440 kvota ayrılmışdı və ziyarətin qiyməti 4150 dollar müəyyən edilmişdi. Bu da böyük vəsaitdir. Bir imanlı adam kimi, ziyalı kimi hesab edirəm ki, Həcc ziyarətinə getmək arzusunda olan, lakin mövcud səbəblər üzündən gedə bilməyən vətəndaşlarımız ziyarətə xərcləyəcəyi vəsaiti pandemiya dövründə işini itirən, ehtiyacı olan insanlara yönəltsələr, bu daha faydalı və savab iş olar. Təsəvvür edin ki, həmin 9-10 milyon manat vəsaitlə 16-17 min Azərbaycan vətəndaşına yardım etmək tam mümkündür. Dinimizdə də var ki, qonşusunda ac, yoxsul adam olan bir şəxsin ziyarəti qəbul edilməz.

Biz əvvəlcə öz ətrafımızda ehtiyacı olan insanların problemlərini həll etməliyik, onlara maddi dəstək göstərməliyik.

Yəni bu, dinimizdə də qəbul edilən bir məsələdir. Hesab edirəm ki, pandemiya dövründə ziyarətə getməyin özü düzgün deyil. Çünki bununla insanlar özlərini əlavə problemə sala, daha çox yoluxa bilərlər".

**Ə.Qəşəmoğlu hesab edir ki, bu insanlar hətta bu vəsaiti koronavirusla mübarizəyə də xərcləyə bilərlər. Bütün bunların daha faydalı olduğunu deyən Ə.Qəşəmoğlunun fikrincə, bununla öz xalqına, dövlətinə yardım edər, islam aləmində nüfuzunu daha da artırar.**

*İradə SARIYEVA*

**Yas yerlərində koronavirusa yoluxmaların çoxalması ciddi narahatlıq doğurur. Təəssüflər olsun ki, xəbərdarlıqlara baxmayaraq, vətəndaşlarımız koronavirusla mübarizədə lazımi məsuliyyət nümayiş etdirmirlər.**



# Yas qayda-qanunlarını pozan mollalar üçün cəzalar müəyyənləşdi...

***Seyid Camal Əzimbəyli:** "Kütləvi yas mərasimlərində iştirak edən din xadimləri cəzalandırılmalıdırlar"*

Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib ki, ən çox yoluxma halları yas mərasimlərində baş verib: "Təəssüf ki, yas yerlərində kütləvi yoluxmalar baş verir. Yas qadağan olunsa da, xüsusən rayonlarda bu qadağalara riayət olunmur. Yoluxma baş verdikdən sonra analizlər aparılır. Analizlər göstərir ki, yoluxmaların əksəriyyəti yas yerlərində baş verir. Xüsusən yaşlı insanların və qadınların yas yerlərində toplaşması yoluxmaya səbəb olub. Vətəndaşları qaydalara riayət etməyə dəvət edirik".

Qeyd edək ki, karantin dönəmində yas mərasiminin kütləvi təşkili ilə bağlı məhdudiyyətlərin, qadağaların qüvvədə qalması arzuediləndir. Çünki yas mərasimlərində iştirak edən insanlar karantinlə bağlı qadağalara riayət etmək istəmirlər. Bu səbəbdən də karantin qaydalarını pozan mollalarla bağlı ölçü götürüləcək.

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ölkədə karantin gündəmə gələn ilk günlərdən koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahların fəaliyyətini müvəqqəti dayandıraraq, kütləvi ibadət mərasimlərin keçirilməməsi barədə tapşırıq və tövsiyələrini verib.

Qafqaz Müsəlmanları İdarəsinin yaydığı məlumatda qeyd olunur ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara uyğun olaraq dəfn mərasimləri məhdud sayda, yaxın qohumların iştirakı ilə və sosial məsafəyə riayət edilməklə həyata keçirilməlidir. Qapalı, yaxud açıq məkanlarda on nəfərdən artıq şəxsin iştirakı ilə ehsan verilməsi və yas məclislərinin təşkili və orada din xadimlərimizin iştirakına icazə verilmir: "Bütün din xadimlərinə bununla bağlı tərəfimizdən tapşırıq verilib. Bu qərarların icrasına QMİ nəzarət edir, tapşırığın yerinə yetirilməsinə yerlərdəki qazilərimiz və səlahiyyətli nümayəndələrimiz məsuldurlar və bu barədə QMİ-yə mütəmadi məlumat verirlər. Bu müvəqqəti çətinlik dövründə tövsiyələrimizi nəzərə almayanlar, təəssüf ki, mövcud vəziyyətin məsuliyyətini dərk edə bilməyənlərdir. Qayda və tövsiyələrə əməl etməyən din xadimləri ilə bağlı hal aşkarlanarsa, QMİ tərəfindən müvafiq ölçü götürüləcək"

Ekspertlər də hesab edirlər ki, hazırki dönəmdə kütləvi yas mərasimlərinin keçirilməsi düzgün deyil. Həmin mərasimdə iştirak edən din xadimləri də qanun çərçivəsində cəzalandırılmalıdırlar.

İlahiyyatçı Seyid Camal Əzimbəyli bildirdi ki, bir insan başqasını yoluxdura biləcəyi və ya özü yoluxa biləcəyi bir yerə gedirsə, onun orada iştirakı dini baxımdan da haramdır: "Həm dünyasını dəyişən insanın ailəsi, həm də o məclisdə iştirak edən insanlar məsuliyyətli olmalıdırlar. Bu məsələləri insanlara təkcə inzibati yollarla yox, maarifləndirmə yolu ilə çatdırmaq lazımdır. Bu mənada din xadimləri fəal olmalıdırlar. Xüsusilə də dəfn mərasimində iştirak edən din xadimlərinə Qafqaz Müsəlmanları İdarəsi tövsiyə edir ki, bu məsələlərlə bağlı insanlara mövqelərini bildirsinlər, insanları həmin mərasimlərdə iştirak etməkdən çəkindirsinlər".

Həmsöhbətimiz onu da vurğuladı ki, yas mərasimlərində iştirak edən mollalar insanlara onların sağlamlığı üçün sosial məsafə saxlanmasının vacibliyi haqqında məlumat verməlidirlər: "Bu gün yas mərasimlərində insanların sosial məsafə saxlaması vacibdir. İnsanlar sıx şəkildə oturmamalıdırlar. Əvvəllər insanlar buna əhəmiyyət vermirdilər, çünki virus yox idi. Ancaq indi vəziyyət fərqlidir".

S.C.Əzimbəyli hesab edir ki, kütləvi yas mərasimlərində iştirak edən din xadimləri cəzalandırılmalıdırlar.

*Günel CƏLİLOVA*

**Koronavirus pandemiyasının zərər vurduğu sahələrdən biri də daşınmaz əmlak bazarıdır. İstər mənzil, istərsə də torpaq satışında durğunluq müşahidə olunur. Araşdırmalara görə, son zamanlar tikinti materiallarının qiymətində artım baş verib.**

# Pandemiya dövründə tikintinin vüsəti zəifləyib, tikinti materialları niyə bahalaşıb?

## *Rəşad Həsənov: "Karantin yumşaldıldıqdan sonra tikintilərdə tələbat olduğuna görə bahalaşma da ola bilər"*



Qiymət artımı əsasən daşlarda müşahidə olunur. Yəni 45-50 qəpiyə satılan daş 60 qəpiyə, 30 qəpiyə satılan kərpiclər isə 37-40 qəpiyə təklif olunur. Bundan əlavə, taxta, dəmir və digər materialların da qiymətində kəskin bahalaşma var. Bahalaşma pərakəndə satışla yanaşı, tikinti bazarlarında da müşahidə olunmaqdadır. Məlumdur ki, Bakı şəhərində ən böyük tikinti bazarı Dərnəgül tikinti bazarı sayılır. Qiymət artımı ən çox elə adıçəkilən bazarda baş verib.

Onu da bildirək ki, pandemiya ilə bağlı bəzi sahələrdə tikinti işi müvəqqəti olaraq dayandırılıb. Maraqlıdır, tikinti sektorunda aktiv iş olmadığı halda, tikinti materiallarının qiymətinin bahalaşmasının səbəbi nədir?

*"Tikinti məhsullarının gətirilməsinin maya dəyəri yüksək olduğu üçün sahibkarlar da onun satışına əlavə məbləğ artırmalı olurlar"*

İqtisadçı-ekspert Rəşəd Həsənov bildirdi ki, tikinti sektorunda qiymət artımının müxtəlif səbəbləri var: "İlk olaraq bildirim ki, tikinti materiallarının çoxu xaricdən Azərbaycana idxal olunur. Hazırda karqo ilə bağlı bahalaşma var. Məhsulların gətirilməsinin maya dəyəri yüksək olduğu üçün sahibkarlar da onun satışına əlavə məbləğ artırmalı olurlar. Digər səbəb isə pandemiya ilə bağlıdır.

Məlumdur ki, may ayından etibarən tikintilərdə iş dayanmışdı. Karantin yumşaldıldıqdan sonra tikintilərdə tələbat olduğuna görə bahalaşma da ola bilər. Sahibkarlıq subyektləri üçün bu səbəb də qiymət artımına şərait yarada bilər".

*Günel CƏLİLOVA*

---

**Ölkə başşısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən xüsusi karantin rejimi dövründə paytaxtda koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizənin daha da genişləndirilməsi məqsədilə Bakı şəhərinin bütün rayonlarında xüsusi gücləndirilmiş kompleks tədbirlər geniş şəkildə davam etdirilir.**

# Xətainin Neapol küçəsinin sakinlərinin şikayəti - "bizim küçə hələ də dezinfeksiya olunmayıb"

## *Xətai Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi - Ramiz Əliyev: "Komendant tərəfindən həmin binanın liftində gündə 2-3 dəfə, girəcəklər və mərtəbələrində isə hər gün dezinfeksiya işləri aparılmalıdır"*

## *Rasif Bağırov: "Evlər, evlərin arasındakı çirkli sahələr dezinfeksiya olunmalıdır"*

Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, ölkə ərazisində dezinfeksiya işləri aparılmalıdır.

Ancaq bəzi ərazilərdə dezinfeksiya işlərinin həyata keçirilməməsi ilə bağlı şikayətlər var. Belə ki, paytaxtın Xətai rayonu, Neapol küçəsində yerləşən 24, 26 a və 28 saylı yaşayış binalarında, nədənsə, dezinfeksiya işləri aparılmır.

26 a saylı binanın sakinləri bildirirlər ki, karantin rejimi tətbiq edildiyindən bəri yaşadıqları binada dezinfeksiya işləri aparılmır: "COVID-19 pandemiyası dünyanı cənginə alıb. Paytaxtda əhali arasında geniş yayılmağa başlayıb. Karantin rejimi tətbiq edilib, amma yaşadığımız binanın girəcəklərində, zirzəmisində və eləcə də sakinlərin sıx toplaşdığı ərazilərdə dezinfeksiya işləri aparılmayıb. Karantin rejiminə qədər hər gün sakinlər çıxıb həyətdə oturur, uşaqlar isə oynayırdılar. Həyətdəki oturacaqları, söhbətgahları, uşaq oyuncaqlarını gəlib dezinfeksiya etmirlər. Aidiyyəti qurumlar mərkəzi küçələri dezinfeksiya edirlər. Hər gün bloklarda onlarca insan mərtəbələrə qalxıb-düşür, nədənsə, gəlib girəcəkləri, binaların mərtəbələrini, pilləkənləri, liftləri dezinfeksiya etmirlər. Yeri gəlmişkən, elə xəstəliyin yayılma risqinin də artmasının bir səbəbi yaşayış binalarında və zibil qutuları qoyulan



ərazilərdə dezinfeksiya işlərinin aparılmamasıdır".

Məsələ ilə bağlı Xətai Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi ilə əlaqə saxladıq. Birliyin şöbə müdiri Ramiz Əliyev bildirdi ki, 26 a saylı bina Rayon MKTB-nin tabeliyində deyil: "Həmin bina təzə tikilib. Binanın özünün komendantı var. Komendant tərəfindən həmin binanın liftində gündə 2-3 dəfə, girəcəklər və mərtəbələrində isə hər gün dezinfeksiya işləri aparılmalıdır. Bu haqda 26 a saylı binanın komendantı Mahir müəllimə məlumat veriləcək".

Həkim-ekspert Rasif Bağırov bildirdi ki, ev və evlərin arasındakı sahələrin dezinfeksiya edilməsi daha məqsədəuyğundur: "Küçələrin, maşın yollarının dezinfeksiya olunmasının heç bir əhəmiyyəti yoxdur. Evlər, evlərin arasındakı çirkli sahələr dezinfeksiya olunmalıdır. Yolun, küçənin ortasını dezinfeksiya etmək kimə lazımdır? Maşının təkərinin altında virus olur ki, dezinfeksiya edirlər?

Ona görə də olunmalıdırsa, insanların daha çox olduğu yerlər dezinfeksiya edilməlidir. Həmçinin, ev heyvanlarının olduğu yerlər dezinfeksiya olunmalıdır. Çünki həmin yerdə digər virusların da inkişafına şərait yaranır. Xarici ölkələrin praktikasında da belədir ki, küçələri deyil, evləri, evlərin arasındakı sahələri dezinfeksiya edirlər".

*Günel CƏLİLOVA*

№ 100 (4231) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

24 İYUN 2020-ci il

www.baki-xeber.com



# Ehtiyatlı olun, sizi adi lampa vasitәsilә dә dinlәyә bilәrlәr

**İnsanları izlәmәk üçün yeni üsul tapılıb. Veysman İnstitutu vә İsraildәki Ben-Gurion Universitetinin tәdqiqatçıları başqasının söhbәtini dinlәmәk üçün qeyri-adi yol tapıblar.**

Bunun üçün demәk olar ki, istәnilәn otaqda olan sadә bir lampa uyğun gәlir. Yeni üsul Lamphone adlanır vә sәs dalğaları ilә tәmasda olan әtrafdakı әşyaların titrәmәsinә әsaslanır. Alimlәr qeyd edirlәr ki, işlәyәn lampalarda titrәmәlәr dә yüngül bir sıçrayışa sәbәb olur. Güclü sensorlar vasitәsilә mütәxәssislәr bu dalğalanmaları qeyd edә vә işıq lampasının sәthinә dәyәn sәs dalğalarını çoxalda bilәrlәr. "Ted.az" bildirir ki, Lamphone ciddi mәhdudiyyәtlәrә malikdir. Mәsәlәn, bir lampa sәs dalğalarını almaq üçün birbaşa açıq olmalıdır. Әksәr işıq mәnbәlәri plafonlarda gizlәnir, buna görә çox yerdә yeni dinlәmә növü işlәmәyәcәk. Lampa hәlә tam açıldığı tәqdirdә dә istәnilәn mәsafәdәn oradakı işığın dәyişmәsini qeyd etmәk üçün bir teleskop vә elektro-optik sensor kifayәt edәcәk. Tәcrübә zamanı alimlәr ofisdәn sәslәri 25 metr mәsafәdәn qeyd edә biliblәr. Texnologiya uzaq bir mәkandan nitq tanıma işini uğurla hәll etdi.

## 60 min arını saatlarla başında saxladı

**Hindistanda arıçılıqla mәşğul olan Natur M.S. 60 min arını başına yığıb.**



"Oxu.az" bildirir ki, 24 yaşlı gәnc 4 saat 10 dәqiqә arıları başında saxlayaraq "Ginnesin Rekordları" kitabına düşüb. O, yeddi yaşından arıların başına toplaşmasına icazә verib. Dediyinә görә, arılar ona tәhlükә yaratmır vә әn yaxın dostlarıdır. Bir neçә dәfә arıların sancmasına mәruz qaldığını deyәn Natur bunun arıların deyil, onun öz sәhvi ucbatından baş verdiyini bildirib. Hazırda o, arıçılıqla bağlı tәhsil alır.

## Spot robotunun satışları başlandı

**"Boston Dynamics" şirkәti öz saytında Spot robotunun satışlarına start verib. Bu barәdә "Gagadget" saytı xәbәr verib.**

Qeyd etmәk lazımdır ki, ilkin mәrhәlәdә şirkәt sözügedәn robotu bәzi şirkәtlәrә icarәyә verirdi. İndi isә istәnilәn şirkәt bu robotu әldә edә bilәr. Robotun satışı hәlә ki, ABŞ-da reallaşdırılır. Lakin digәr ölkәlәrdәn olan şirkәtlәr "Boston Dynamics" ilә әlaqә yaradaraq, robotun icarәsi mәsәlәsini müzakirә edә bilәrlәr. Spot robotu kommersiya vә sәnaye sahәlәrindә istifadә oluna bilәr. Mәsәlәn, bu robot avtomatik şәkildә mәlumatların yığılmasında, yüklәrin daşınmasında vә tәhlükәli әrazilәrin müşahidә olunmasında istifadә oluna bilәr. Hәr ehtimalda "Boston Dynamics" şirkәti Spot-dan yalnız faydalı işlәrdә istifadәni tәlәb edir. Satış komplektinә robotun özü, onun üçün iki batareya, idarәetmә planşeti, gövdә vә proqram tәminatı daxildir. Robotun qiymәtinә gәldikdә isә o çox bahadır.

Belә ki, robot 74.500 dollar qiymәtindә satılır. Müqayisә üçün qeyd etmәk lazımdır ki, hәmin qiymәtә "Tesla Model S" elektromobili almaq olar. Әlavә 15.000 dollara robot üçün ehtiyat batareya, LiDAR skaner vә digәr tәchizat almaq olar.

## Әllәrini az yusan, "ağıllı" saat titrәmәyә başlayacaq

**"Apple" şirkәti öz mәhsullarına koronavirusla bağlı bir sıra yeniliklәr әlavә edib.**

"Nyu-York Post" xәbәr verir ki, şirkәtin yaydığı açıqlamada istifadәçilәrin öz emojilәrini düzәldәrkәn maska stikerindәn istifadәnin mümkün olacağı bildirilir. Hәmçinin, "Apple"nin qol saatlarından istifadә edәn şәxslәrә gün әrzindә müәyyәn saatdan bir әllәrini yuması ilә bağlı bildiriş xarakterli xәbәrdarlıq edilәcәk. Bundan başqa, "ağıllı" qol saatı üzәrinә yerlәşdirilәn mikrofon sayәsindә sahibinin әllәrini yuduğunu bilәcәk vә ekranda "әla, tәşәkkür edirәm" tipli yazı görünәcәk. Әgәr, qolunda saat olan şәxs әllәrini 20 saniyәdәn az müddәtә yuyarsa, "Apple Watch" titrәmәyә başlayacaq.






## Elan

Şәki şәhәr sakini Kәrimova Şәhla Hәsәn qızının adına verilmiş 0585282 saylı daşınmaz әmlakın Dövlәt reyestrindәn çıxarışı, torpaq sahәsinin planı vә ölçüsü itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini İlyasov Fәrrux Kәrim oğlunun adına verilmiş yaşayış evinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Şәki rayonu, Çayqaraqoyunlu kәnd sakini Qurbanov Bayram Hacı oğlunun vә ailә üzvlәrinin adına verilmiş JN-0162 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.




**Qoç** - Günün ilk yarısında әhvalınız, çәtin ki, nikbin olsun. Çәtinliklәri olduğundan artıq dәyәrlәndirmәyin. Yaranmış situasiyadan çıxış yolunun olmadığını düşünmәyin. Axşam saatlarına qәdәr hәr şeyi çox mürәkkәb saymayın.


**Buğa** - Gәrәkli insan vә ya tәşkilatla münasibәtlәr yaxşılaşa bilәr. Lakin tam razılığa nail olmaq vә ziddiyyәtlәri aradan qaldırmaq üçün әlverişli zaman deyil. Bunu anlayın, әks tәqdirdә sәylәriniz hәdәr gedәcәk.


**Әkizlәr** - Günün әsas hissәsini rutin işlәr tәşkil edәcәk. Әgәr nәyә görәsә rәsmi mәsuliyyәt daşımırsınızsa vә muzdla çalışmırsınızsa, sizi müşkül mәqamlar gözlәyir. Saatlar keçdikcә öhdәliklәr vә cari işlәr azalacaq.


**Xәrçәng** - Qarışıq işlәr tam müәyyәnlik vә dәqiqlik tәlәb edir. Yorucu, usandırıcı stereotiplәri dağıtmaq gәrәkdir. Yaxın günlәr üçün planları dәqiqlәşdirin. Fәaliyyәt vә yaşam şәraitini dәyişmәk olar.


**Şir** - Sәhәr saatlarından etibarәn mәhdudiyyәtlәr vә bәdbinliklә işlәrә qatılmayın. Situasiyanın şәrtlәri ağırdır. Mәqsәdә doğru aparan yolda yaranan elementar çәtinliklәr sizә aşılmaz sәdlәr tәsiri bağışlamasın.


**Qız** - Sәhәr saatlarından etibarәn yaranan problemlәr tәcili hәllini vә dәrin araşdırılmasını tәlәb edir. Sәfәrlәr yorucu ola bilәr. Yaşam qarşınızda yeni sәdlәr yaradacaq. Saatlar keçdikcә şәrait kәskin şәkildә dәyişә bilәr.


**Tәrәzi** - Maddi durumunuzu yaxşılaşdırmağa çalışın. Qәtiyyәtli, sәbrli olun. Bunun üçün aktiv sәylәr göstәrmәk gәrәk deyil. Tәmkinli olun, bәzi adamların tәxribatlarına uymayın. Saatlar keçdikcә vәziyyәt daha da rәngarәg olacaq, yeni insanlarla tanış olacaqsınız.


**Әqrәb** - Neqativ münasibәtlәr vә fikirlәr sizdә bәdbinlik yaratmasın. Әhvalınızın pislәşmәsi üçün yetәrincә sәbәb yoxdur. Üzlәşdiyiniz problemlәrdә yaxın әtrafınızdakı insanları suçlamayın.


**Oxatan** - Günün әksәr hissәsindә tәkbaşına çalışmalı, müstәqil olacaqsınız. Xoşagәlmәz emosiyalar vә bәdbinlik sizdә ruh düşkünlüyü yarada bilәr. Problemlәri hәll etmәk әvәzinә, onları daha da ağırlaşdıraraq süstlük vә tәnbәllik etmәyin.


**Oğlaq** - Әvvәlcәdәn hazırladığınız planlardan vә ideyalardan imtina edәrәk onları ölü konstruksiyalara çevirmәyin. Bәzi planları dәyişmәdәn irәlilәmәyә çalışın. Bәzi tәfәrrüatlar vә detalların yenilәnmәyә ehtiyacı var.


**Dolça** - Dostlar vә tanışların yardımlarından imtina etmәyin. İmkanlarınızın mәhdud, resurslarınızın az olduğunu düşünәrәk planlardan boyun qaçırmayın. Çox yәqin ki, yanlış yerdә qәrarlaşıbsınız.


**Balıqlar** - Sәhәr saatlarından etibarәn bәdbinliyә qapılaraq problemlәrin qarşısından geri çәkilmәyin. Әvvәlcәdәn müәyyәnlәşdirdiyiniz planlar çәrçivәsindә fәaliyyәt göstәrin. Hәdәf vә mәqsәdlәri dәqiqlәşdirin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Arıqlamaq üçün çox ucuz üsul...

**İsveçrәdәki Fribur Mәrkәzi maraqlı araşdırma aparıb.** "Mili.Az" bildirir ki, mәlum olub ki, artıq çәkidәn azad olmaq üçün soyuq çay içәnlәr isti çay içәnlәrә nisbәtәn daha tez arıqlayırlar. Araşdırmada iştirak edәn şәxslәrin bir qisminә temperaturu 3 dәrәcә, digәrlәrinә isә 55 dәrәcә olan çay verilib. 90 dәqiqә sonra isә onların tәzyiqi, temperaturu vә digәr göstәricilәri yoxlanılıb. Çayın qiymәti nәzәrә alınanda, arıqlamağın o qәdәr dә bahalı olmadığını vurğulamaq olar.



*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.